# AVROPA ŞURASI (AŞ PA)

Əsrlər boyu baş vermiş amansız müharibələr, münaqişələr ucbatından bəşər sivilizasiyası zərər çəkmiş, yüz milyonlarla insanın həyatına son qoyulmuş, planetin gələcəyi sual altında qalmışdır. XX əsr Avropasının da taleyi belə faciəvi olmuşdu. Qitə iki dünya müharibəsinin meydanına çevrilmiş, kütləvi dağıntılara, on milyonlarla iman tələfatına məruz qalmışdır.

İkinci Dünya müharibəsindən sonra Avropa dövlətləri bir daha faciələrə yol verməmək, qitənin etibarı gələcəyini təmin etmək, silahlı qarşıdurmaları istisna etmək və sabit inkişafı təmin etmək üçün yeganə vasitə kimi insan fəaliyyətinin bütün sahələrində SIX əməkdaşlıq əlaqələri yaratmağa başladılar. Bu işi həyata keçirmək və qitədə inteqrasiyanı dərinləşdirmək məqsədilə Avropa regional təşkilatları yaradıldı, 1949-cu il mayın 5-də təsis edilmiş Avropa Şurası (AŞ) tezliklə Avropanın nüfuzlu regional təşkilatlarından birinə çevrildi.

XX əsrin sonlarında dövlət müstəqilliyi əldə etmiş Azərbaycan dünya birliyinin tamhüquqlu üzvü olmaq, beynəlxalq proseslərdə bütün ölkələr və xalqlar ilə çiyin-çiyinə yaxından iştirak etmək xəttini fəal surətdə həyata keçirir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1993-cü ilin iyunundan xalqın yekdil iradəsi ilə Azərbaycana yenidən rəhbərliyə başladıqdan sonra dünya və regional beynəlxalq strukturlar ilə əməkdaşlığın genişləndirilməsi sahəsində daha məhsuldar, ardıcıl səmərəli səylər göstərilmişdir.

Ötən dövrdə Prezident Heydər Əliyev Avropa dövlətlərinin başçıları, Avropa təşkilatlarının nümayəndələri ilə intensiv görüşlər, danışıqlar keçirmiş, müzakirələr aparmışdır. Prezident Heydər Əliyevin Azərbaycanı dünyaya, o cümlədən Avropaya tanıtmaq, onun strukturlarına inteqrasiya etmək sahəsindəki gərgin diplomatik səyləri nəhayət öz nəticəsini vermişdir. 1996-cı il iyunun 28-də Avropa Şurası Parlament Assambleyasının Bürosu Azərbaycana Avropa Şurasında "Xüsusi qonaq" statusunun verilməsi barədə qərar qəbul etmişdir.

O vaxtdan bəri ölkəmizin bu təşkilata tamhüquqlu üzv olması istiqamətində məqsədyönlü iş aparılır. Söhbət ilk növbədə milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, demokratik proseslərin sürətləndirilməsi, cəmiyyətin humanistləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması ilə bağlı tədbirlərdən gedir.

Fransa Respublikasının Prezidenti Jak Şirakın dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci il oktyabrın 10-11-da Strasburqda keçirilmiş ikinci zirvə görüşündə iştirakı ölkəmizin Avropa Şurası ilə əməkdaşlığı tarixində yeni bir dövrün başlanğıcını qoymuşdur.

Azərbaycan Prezidentinin Avropa Şurasının zirvə görüşündə iştirakı tarixi hadisə idi. Müstəqil Azərbaycan Respublikasının Prezidenti ilk dəfə idi ki, Avropa Şurasının zirvə görüşündə iştirak edirdi və orada çıxış edərək ölkəmiz haqqında danışmaq, həmçinin Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsindəki vəziyyəti və bu problemin tezliklə həllində Azərbaycanın mövqeyini açıqlamaq imkanı əldə etmişdi.

Zirvə görüşü zamanı Avropanın kütləvi informasiya vasitələrinin nümayəndələri Prezident Heydər Əliyevin keçirdiyi görüşlərə, xüsusən Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı məsələlərə böyük maraq göstərirdilər.

Prezident Heydər Əliyev Avropa Şurası ilə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata kecirmis, sərəncamlar imzalamışdır. Məqsəd Azərbaycanın Avropa Şurasına mexaniki şəkildə daxil olmasından deyil, Avropa standartlarına həqiqətən uyğunlaşdırılmasından ibarətdir. Azərbaycan dövləti çalışır ki, həmin səviyyəyə nail olsun və Azərbaycanın Avropa Şurasına qəbul edilməsi bunun məntiqi yekununa çevrilsin.

2000-ci il iyunun 26-30-da Fransanın Strasburq şəhərində Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyası keçirildi. Sessiyanın gündəliyinə daxil edilmiş məsələlərdən biri də Azərbaycan Respublikasını təşkilata tamhüquqlu üzv qəbul olunması idi.

Azərbaycanın Avropa Şurasına qəbulu haqqında məsələ sessiyanın 28 iyun tarixli iclasının gündəliyinə daxil edilmişdi.

Səsvermənin nəticələri gözlənilməz olmadı. Azərbaycanın Avropa Şurasına qəbulu lehinə 120 nəfər, əleyhinə 1 nəfər səs verdi, 5 nəfər isə bitərəf qaldı. Beləliklə, Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv seçilməsinə qitə ölkələri tam dəstək verdilər.

Bu hadisə dövlətimizin başçısının apardığı düzgün, ölçülüb-biçilmiş xarici siyasətin məntiqi nəticəsi idi və Azərbaycan diplomatiyasının tarixində öz yerini tutacaqdır.

Bu gün Azərbaycan böyük Avropa ailəsinə daxil olur. Ölkəmizin Avropa Şurası sıralarına qoşulması mühüm hadisədir. Azərbaycan təkcə coğrafi Avropanın yox, həm də demokratik Avropanın bir hissəsi olmaq əzmindədir.

Azərbaycan cəmiyyəti Avropa dəyərlərini əldə rəhbər tutaraq, Avropa təcrübəsindən bəhrələnərək tərəqqi etmək, müasir cəmiyyət qurmaq niyyətindədir və demokratiya prinsiplərinə daim sadiq qalacaqdır.

## Avropa Şurası və Azərbaycan

**24 yanvar 1992-ci il -** Azərbaycan Respublikasının Parlamenti "xüsusi dəvət edilmiş qonaq" statusu almaq üçün Avropa Şurasına müraciət etmişdir.

**10 noyabr 1994-cü il -** Avropa Şurası Parlament Assambleyası Azərbaycan-Ermənistan cəbhəsində atəşkəsin əldə edilməsi ilə bağlı məmnunluq hisslərinin ifadə olunduğu 1047 saylı qətnamə qəbul etmişdir.

**3 fevral 1995-ci il -** AŞPA Bürosu 1994-cü ildə qəbul edilmiş və üç Cənubi Qafqaz dövlətinin Avropa Şurasına üzv qəbul edilmək üçün müraciət hüququnu nəzərdə tutan 1247 saylı tövsiyəyə uyğun olaraq Azərbaycanın "xüsusi dəvət edilmiş qonaq" statusu almaq barədə müraciətinin nəzərdən keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir.

**17- 18 mart 1996-cı il -** Avropa Şurasının Demokratiya uğrunda Venesiya Komissiyasının iclasında Azərbaycan bu komissiyaya üzv qəbul edilmişdir.

**5-6 iyun 1996-cı il -** Azərbaycan Respublikasının Xarici İşlər Naziri H.Həsənov Strasburqa səfər edərək AŞ Nazirlər Komitəsində Azərbaycanın Avropa ilə tarixi əlaqələri, dövlətimizin xarici siyasəti, ölkəmizdə demokratik dəyişikliklərin gedişi haqda müzakirələr aparmışdır. Bu görüşün nəticələri ilə əlaqədar olaraq AŞ və Azərbaycan arasında Əməkdaşlıq Proqramı tərtib edilmişdir.

**28 iyun 1996-cı il -** Avropa Şurası Parlament Assambleyasının Bürosu Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi barədə qərar qəbul etmişdir.

**12-14 iyul 1996-cı il -** AŞ Nazirlər Komitəsinin Sədri, Estoniya Xarici İşlər Naziri S.Kelas və Avropa Şurasının Baş katibi D.Tarşısın başçılıq etdiyi nümayəndə heyəti Bakıya səfər edərək Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisin Sədri, Xarici İşlər, Daxili İşlər və Ədliyyə nazirləri ilə görüşlər keçirmiş və Azərbaycanın AŞ-da iştirakı perspektivlərini müzakirə etmişdir.

**13 iyul 1996-cı il -** Azərbaycan Respublikasının Prezidenti H.Əliyev Avropa Şurası Baş katibinin adına məktub göndərərək Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul olunmaq və digər üzv dövlətlər kimi İnsan hüquqları və azadlıqları haqda Avropa konvensiyasına qoşulmaq arzusunda olduğunu bildirmişdir.

**11 sentyabr 1996-cı il -** Avropa Şurası Nazirlər Komitəsinin 573-cü iclasında Azərbaycanın Avropa Şurasına daxil olması, Azərbaycanda demokratiyaya keçid prosesinin sürətləndirilməsi məqsədilə Azərbaycan hakimiyyət dairələri ilə danışıqların intensivləşdirilməsi, əməkdaşlıq proqramları formasında yardımın edilməsini nəzərdə tutan ( 96) 32 saylı qətnamə qəbul edilmişdir.

**Yanvar 1997-ci il -** Azərbaycan Respublikası Milli Məclisinin Sədri M.Ələsgərovun başçılıq etdiyi nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasının Sədri xanım Leni Fişerin dəvəti ilə Strasburqda keçirilən Qafqaz problemlərinə dair seminarda iştirak etmişdir.

**22 aprel 1997-ci il-** Strasburqda Avropa Şurasının Parlament Assambleyasının yaz sessiyasında Cənubi Qafqaz münaqişələri ilə əlaqədar olaraq sərhədlərin toxunulmazlığı, beynəlxalq sülhü mühafizə qüvvələrinin vasitəçiliyi ilə münaqişə zonalarında təhlükəsizliyin təminatı, bütün əlaqədar tərəflər arasında danışıqlardan sonra Abxaziya və Dağlıq Qarabağ üçün geniş muxtariyyət statusu, qaçqınlar və məcburi köçkünlərin öz yerlərinə qayıtmaq hüququ ilə bağlı prinsiplərin əks olunduğu 1119 saylı qətnamə qəbul edilmişdir.

**25 aprel 1997-ci il -** Azərbaycan Respublikası Avropa Mədəniyyət Konvensiyasına qoşulmuşdur.

**10-11 oktyabr 1997-ci il -** Azərbaycan Respublikasının Prezidenti H.Əliyev Avropa Şurası üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Strasburqda keçirilən 2-ci zirvə toplantısında iştirak etmiş, Avropa Şurasının rəhbərləri ilə Azərbaycanda demokratik proseslərin gedişi, ölkəmizin Avropa strukturları ilə əlaqələri barədə fikir mübadiləsi aparmış, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini açıqlamışdır.

**20 yanvar 1998-ci il -** Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" sərəncam imzalamışdır.

**3 fevral 1998-ci il -** Azərbaycan Respublikasının Milli Məclisi Respublika Prezidentinin qanunvericilik təşəbbüsü əsasında ölüm hökmünün ləğv edilməsinə dair qərar qəbul etmişdir (1993-cü ildən etibarən ölüm hökmünün icrasına faktiki surətdə moratorium qoyulmuşdur.)

**Avqust 1998-ci il -** Avropa Şurasının baş katibi D.Tarşisin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana dair ətraflı məlumat toplamaq üçün Bakıya səfər edərək bir sıra rəsmi görüşlər keçirmişdir.

**16 avqust 1998-ci il -** Azərbaycanda mətbuat üzərində senzura ləğv olunmuşdur.

**11 sentyabr 1998-ci il -** Avropa Şurasının yardımçı və məsləhətçi orqanı olan Qanun vasitəsilə Demokratiya uğrunda Avropa Komissiyasının (Venesiya Komissiyası) nümayəndə heyəti Belçikanın Konstitusiya və Arbitraj Məhkəməsinin Sədri M.Melşorun başçılığı altında Azərbaycanda olmuşdur.

**Noyabr 1998-ci il -** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri X.Hacıyev Strasburqa səfər etmiş, Avropa Şurasının Baş Katibi D.Tarşis və Avropa Şurası Parlament Assambleyasının Hüquq məsələləri və insan hüquqları komitəsinin Sədr müavini ilə keçirdiyi görüşlərdə Azərbaycanda Konstitusiya

Məhkəməsinin təşkili, formalaşması və fəaliyyəti barədə məlumat vermiş, Azərbaycanın bu mötəbər quruma üzvlüyə hazır olduğunu bəyan etmişdir.

**15 – 18 sentyabr 1999-cu il** - Avropa Şurası Parlament Assambleyasının Sədri cənab Lord Rassel-Conston Azərbaycana səfər etmişdir.

**21 oktyabr 1999-cu il** - Azərbaycan Respublikasının Prezidenti "Avropa Şurasında Azərbaycan Respublikasının təmsilçiliyinin təşkilati təminatı haqqında" sərəncam vermişdir.

**2-3 mart 2000-ci il** - Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini A.Əzimov Strasburqa səfər edərək Avropa Şurası Nazirlər Komitəsinin Avropada demokratik sabitlik üzrə Komitəsinin iclasında çıxış etmiş, AŞ-nın yüksək vəzifəli şəxsləri və bu təşkilatın üzvü olan dövlətlərin daimi nümayəndələri ilə Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə bağlı müzakirələr aparmışdır.

**18 mart 2000-ci il** - Azərbaycan Respublikasının Prezidenti "Avropa Şurasının fəaliyyətinə və Azərbaycan Respublikası ilə Avropa Şurası arasındakı əməkdaşlığa dair məlumatların yayılması barədə" sərəncam imzalamışdır.

**23, 25 mart 2000-ci il** - Avropa Şurası Siyasi Komitəsi Azərbaycan Respublikası Milli Məclisinə Azərbaycan Avropa Şurasına tam hüquqlu üzv qəbul edildikdən sonra yerinə yetirilməli olacağı öhdəliklərin siyahısını göndərmiş və bu sənəd Milli Məclisdə təmsil olunmuş siyasi partiyaların nümayəndələri tərəfindən imzalanmışdır.

**27–28 mart 2000-ci il -** Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyev Strasburqa səfər edərək Milli Məclisdə təmsil olunmuş siyasi partiyalar tərəfindən imzalanmış öhdəliklərin siyahısını və Azərbaycanın 8 Avropa Şurası konvensiyasına qoşulması barədə ratifikasiya sənədlərini Avropa Şurasının Baş Katibinə təqdim etmişdir.

**5-6 may 2000-ci il** - Azərbaycan Respublikası Milli Məclisinin Sədri M.Ələsgərov Strasburqa səfər edərək Avropa dövlətləri Parlamentləri başçılarının Konfransı, üç Cənubu Qafqaz respublikası və Fransa Parlament nümayəndə heyətləri arasında, eləcə də Cənubi Qafqaz dövlətlərinin parlament nümayəndələri və AŞPA arasında keçirilən görüşlərdə iştirak etmişdir.

**15 may 2000-ci il** - Avropa Şurası Siyasi Komitəsinin Dublində keçirilmiş iclasında Azərbaycan üzrə məruzəçi J.Bomelin hesabatı dinlənilmiş və Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi ilə bağlı müsbət rəy verilmişdir.

**22 may 2000-ci il** - Avropa Şurası Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin Limasolda (Kipr) keçirilmiş iclasında Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi üçün müəyyən şərtlər irəli sürülmüşdür.

**1 iyun 2000-ci il** - AŞPA Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin Limasol görüşünün nəticələrinə əsasən, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Beynəlxalq Qızıl Xaç Komitəsi ilə azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə görüşlərə dair səlahiyyətlərin həyata keçirilməsi haqqında saziş imzalamışdır.

**12 – 13 iyun 2000-ci il** - AŞ Siyasi Komitəsinin Romada növbəti iclası keçirilmiş və Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi ilə bağlı müsbət rəy verilmişdir.

**13 – 14 iyun 2000-ci il** - AŞ Hüquq məsələləri və insan hüquqları Komitəsinin Parisdə növbəti görüşü keçirilmiş və Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzvlüyü məsələsi ilə bağlı Limasol görüşünün qərarları qüvvədə saxlanılmışdır.

**13 - 14 iyun 2000-ci il** - Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edən İtaliyanın nümayəndə heyəti İtaliyanın Xarici İşlər Nazirinin müavini U.Ranyerinin başçılığı ilə Azərbaycanda səfərdə olmuşdur. AŞ Katibliyi və Nazirlər Komitəsinin məsul şəxslərindən təşkil edilmiş nümayəndə heyətinin Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisin sədri, Xarici İşlər Naziri və Konstitusiya Məhkəməsinin sədri ilə keçirdiyi görüşlərdə Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi istiqamətində atılmış son addımlara dair müzakirələr aparılmışdır.

**26 – 28 iyun 2000-ci il** - Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyası keçirilmişdir; 126 nəfər deputatın iştirak etdiyi səsvermədə 120 nəfər lehinə, 1 nəfər əleyhinə, 5 nəfər isə bitərəf qalmaqla Azərbaycan Respublikasının Avropa Şurasının tam hüquqlu üzvlüyünə qəbul edilməsinə dair müsbət rəy verilmişdir.

**6 sentyabr 2000-ci il** - Avropa İttifaqının üzvü olan ölkələr adından Sədrlik (Fransa) tərəfindən Azərbaycan və Ermənistanın Avropa Şurasına üzvlük üçün müraciətləri ilə bağlı bəyanat qəbul edilmişdir. Bu dövlətlərdə mövcud olan siyasi şəraitin müəyyən zaman kəsiyində Avropa Şurası tərəfindən müdafiə olunan dəyər və prinsiplərə uyğun şəkildə inkişaf edəcəyinə ümidin ifadə olunduğu bu bəyanatda bildirilir ki, Katiblik tərəfindən göstərilən məsələyə haqqında hazırlanmış təhlillərin bu iki dövlətin qoşulmasının siyasi və maliyyə tərəfləri ilə əlaqədar olaraq, Avropada Demokratik Sabitlik üzrə Məruzəçilər Qrupunun (GR-EDS) 15 sentyabr 2000-ci il tarixində keçiriləcək iclasında nəzərdən keçirilməsi üçün ona ötürülməsi və onun tərəfindən bu

məsələyə dair hazırlanmış məruzənin Nazirlər Komitəsində nəzərdən keçirilməsi Avropa İttifaqının üzvü olan dövlətlər tərəfindən məqsədəuyğun hesab edilir.

**6 sentyabr 2000-ci il** - Avropa Şurası Nümayəndələr Komitəsinin 719-cu görüşündə Nümayəndələr: 1. Demokratik Sabitlik üzrə Məruzəçilər Qrupunu (GR-EDS) Ermənistan və Azərbaycanın Avropa Şurasına üzvlük üçün müraciətlərini özünün 15.09.2000 tarixli görüşündə nəzərdən keçirmək və bu barədə məruzə etməyə dəvət etmişlər. 2. Bu məsələnin nəzərdən keçirilməsini özünün cari ilin oktyabr ayının 4-də keçiriləcək 724-cü iclasında Demokratik Sabitlik üzrə Məruzəçilər Qrupunun məruzəsi əsasında yekunlaşdırmaq barədə razılığa gəlmişlər.

**15 sentyabr 2000-ci il** - Avropa Şurası Avropada Demokratik Sabitlik üzrə Məruzəçilər Qrupunun iclasında Azərbaycan və Ermənistanın bu təşkilata üzv qəbul edilməsi məsələsi nəzərdən keçirilmiş və bununla bağlı müzakirələrin həmin qurumun cari ilin sentyabr ayının 29-da keçiriləcək iclasında davam etdirilməsi barədə qərar qəbul edilmişdir.

**10 oktyabr 2000-ci il** - Azərbaycan Respublikası Xarici İşlər Naziri cənab V.Quliyev Strasburqa səfər etmiş və bu təşkilatın Nazirlər Komitəsinin iclasında çıxış etmişdir. Nazir V.Quliyev səfər çərçivəsində üzv dövlətlərin Səfirləri, Avropa Şurasının Baş Katibi V.Şvimmer, Avropa Şurası Parlament Assambleyasının Sədri Lord Rassel-Conston, Avropa Şurası Katibliyinin Siyasi məsələlər üzrə Baş Direktoru Fürer, Avropa Şurasının Nazirlər Komitəsinin Katibi Devis ilə görüşərək qarşılıqlı maraq doğurun bir sıra məsələləri müzakirə etmişdir.

**2-4 noyabr 2000-ci il** - Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini cənab M.Məmməd-Quliyev və Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq Əlaqələr Şöbəsi rəisinin müavini cənab İ.Fərzəliyev Avropa Şurası Parlament Assambleyasının Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin iclası və Avropa İnsan Hüquqları Konvensiyasının imzalanmasının 50-ci ildönümü münasibətilə Roma şəhərində keçirilmiş İnsan Hüquqları üzrə Nazirlər Konfransında iştirak etmişlər.

**7-9 noyabr 2000-ci il** - Avropa Şurası Nazirlər Komitəsinin 107-ci sessiyasında Azərbaycanın Avropa Şurasına üzv olmağa dəvət edilməsi adlı (2000)14 saylı Qətnamə qəbul edilmişdir. Bu sənəddə aşağıdakı qərarlar öz əksini tapmışdır:

1. Azərbaycanın Avropa Şurasına üzv olmağa və Nizamnaməyə qoşulmağa dəvət edilməsi;

2. Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndələrinin sayının 6 nəfər həddində müəyyənləşdirilməsi;

3. Bu qətnamənin əlavəsinə uyğun şəkildə Azərbaycanın Avropa Şurasına müxtəlif bölgülü maliyyə ödəmələrinin miqdarının müəyyənləşdirilməsi.

Bu sessiyada qəbul olunmuş "Ermənistan və Azərbaycan: Avropa Şurasının üzvlüyünə dəvət" adlı Qərarda Azərbaycanla bağlı aşağıdakı müddəalar təsbit edilmişdir:

-Nazirlər Komitəsinin Sədri və Azərbaycanın Xarici İşlər Naziri arasında 2000-ci ilin oktyabrında aparılmış məktub mübadilələrinə uyğun olaraq, ölkənin demokratik inkişafının müntəzəm şəkildə, zərurət yaranarsa bu məqsədlə təsis edilmiş işçi qrupların köməyi ilə izlənməsi;

-Azərbaycan hökumətindən bir ay ərzində seçkiləri müşahidə üzrə beynəlxalq missiya tərəfindən ilkin qeyd və yekunlar üzrə bəyanatda edilmiş tənqidlərə cavab məruzəsinin təqdim olunması və qeyd edilən saxtakarlıqlarda düzəlişlərin edilməsinin xahiş edilməsi;

-Nümayəndələrin, Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyasından əvvəl keçiriləcək 737-ci (17 yanvar 2001-ci il) iclasına qədər məruzə edəcək monitorinq qrupunun yaradılması;

-Venesiya Komissiyasını Konstitusiya, seçki qanunu və mətbuat haqqında qanunda Avropa Şurası standartlarına uyğun şəkildə islahatların aparılması məqsədilə Azərbaycan hakimiyyət orqanlarına yardım göstərməyə dəvət edilməsi;

-Həm Nazirlər Komitəsi, həm də Parlament Assambleyası qarşısında götürülmüş öhdəliklərə müvafiq olaraq, Azərbaycan hökumətindən Dağlıq Qarabağ münaqişəsinin dinc nizamlanmasına nail olmaq üçün Ermənistan hökuməti ilə birgə səylərini gücləndirməyin xahiş edilməsi.

**20 noyabr 2000-ci il** - Avropa Şurası Nazirlər Komitəsinin Nümayəndələr səviyyəsində keçirilmiş 730-cu görüşündə Azərbaycanla bağlı aşağıdakılar qərara alınmışdır:

1. Avropada Demokratik Sabitlik üzrə Məruzəçilər Qrupunun (GR-EDS), özünün, Avropa Şurası Parlament Assambleyasının 2001-ci ilin yanvar ayında keçiriləcək növbəti sessiyasına qədər bütün iclaslarının gündəliyinə "Ermənistan və Azərbaycanın demokratik inkişafının müşahidə edilməsi" adlı bənd daxil etməyə dəvət edilməsi;

2. Monitorinq Qrupunun ("AQO" qrupu) İtaliyanın Daimi Nümayəndəsinin Sədrliyi ilə Avstriya, Fransa, Gürcüstan, Yunanıstan, İtaliya, Latviya, Niderland, Rumıniya, Rusiya Federasiyası, İsveç, İsveçrə, Türkiyə və Almaniya (Avropada Demokratik Sabitlik üzrə Məruzəçilər Qrupunun Sədri qismində) nümayəndələrindən təşkil edilməsi.

**3-4 yanvar 2001-ci il -** Avropa Şurası Nazirlər Komitəsinin Sədri, Latviyanın Xarici İşlər Naziri cənab İ. Berzinş Latviya, Almaniya, Niderland və İsveçin həmin təşkilat yanında Səfirləri ilə birlikdə Bakıda səfərdə olmuşdur. Nümayəndə heyəti Bakıda Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisin Sədri, Xarici İşlər Naziri, Konstitusiya Məhkəməsinin Sədri və digər şəxslərlə görüşlər keçirmişdir.

**6-9 yanvar 2001-ci il -** İtaliyanın Avropa Şurası yanında Daimi Nümayəndəsi P.Erkole Aqonun rəhbərlik etdiyi və Niderland, İsveç, Türkiyə, Yunanıstan Səfirlərindən təşkil edilmiş digər nümayəndə heyəti yuxarıda qeyd edilən məsələlərlə əlaqədar olaraq Bakıda səfərdə olmuş, Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisin Sədri, Xarici İşlər Naziri, Konstitusiya Məhkəməsinin Sədri, Mərkəzi Seçki Komissiyasının Sədri və digər şəxslərlə görüşlər keçirmişdir.

**17 yanvar 2001-ci il -** Avropa Şurası Nazirlər Komitəsinin Nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edilmişdir.

**25 yanvar 2001-ci il -** Strasburqda Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə həsr olunmuş rəsmi mərasim keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin rəhbərlik etdiyi geniş nümayəndə heyəti iştirak etmişdir.

**24-27 aprel 2001-ci il -** Avropa Şurası Parlament Assambleyasının (AŞPA) plenar sessiyası keçirilmişdir. Azərbaycan Respublikasının AŞPA-da nümayəndə heyəti ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etmişdir. Sessiya zamanı 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış "Ermənilər tərəfindən Azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması" adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan müharibə əsirləri və girovları" adlı tövsiyə üçün təklif AŞPA-nın rəsmi sənədləri qismində yayılmışdır. Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin tamamilə qətlə yetirilməsi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi, Ermənistan və işğal edilmiş Azərbaycan torpaqlarında uşaq, qadın və yaşlı insanların da daxil olduğu 783 Azərbaycanlı girovun saxlanılması faktı və digər vacib məsələlər xüsusi vurğulanmışdır.

**10-11 may 2001-ci il -** Bu il mayın 10-11-də Strasburqda Avropa Şurası Nazirlər Komitəsinin 108-ci sessiyası keçirilmişdir. Tədbirdə ilk dəfə olaraq, Azərbaycan Respublikası Xarici İşlər Naziri cənab V.Quliyev iştirak etmişdir.

## Azərbaycan Prezidenti Heydər Əliyevin Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının ikinci Zirvə görüşündə nitqi

- Hörmətli cənab Sədr!
- Hörmətli xanımlar və cənablar!

Avropa Şurasının ikinci sammitinin iştirakçılarının səmimi qəlbdən salamlayıram. Çox məmnunam ki, yeni minilliyin astanasında ən mühüm ümumavropa problemlərinin müzakirəsinə həsr olunmuş bu nüfuzlu beynəlxalq forumda müstəqil Azərbaycan Respublikası ilk dəfə iştirak edir.

Planetimizdə baş vermiş çox böyük müsbət dəyişikliklər - soyuq müharibəyə son qoyulması, dəmir pərdənin götürülməsi Avropanı birləşdirmiş, demokratiya yolu seçən yeni müstəqil dövlətlərin Avropa strukturlarına inteqrasiyasına imkan yaratmışdır.

Avropa Şurası bu proseslərdə mühüm rol oynayır və bütün Avropa qitəsində sülhün və sabitliyin möhkəmləndirilməsinə, plüralist demokratiya prinsiplərinin və ümumbəşəri dəyərlərin bərqərar olmasına onun verdiyi töhfəni biz yüksək qiymətləndiririk.

Avropanın ayrılmaz hissəsi olan Azərbaycan özünün bütün tarixi ərzində onunla əlaqələri inkişaf etdirmişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra mürəkkəb və gərgin bir yol keçmişdir. Keçid dövrünün çətinlikləri, daxili siyasi sabitliyin olmaması, qanunsuz silahlı birləşmələrin azğınlığı, dəfələrlə dövlət çevrilişləri edilməsi, sosial-iqtisadi böhran, qonşu Ermənistanın təcavüzünün dağıdıcı nəticələri özbaşınalıq və hərc-mərclik, insan hüquqlarının kütləvi şəkildə pozulması şəraiti yaratmış, Azərbaycan dövlətçiliyinin mövcudluğunu təhlükə qarşısında qoymuşdur.

Biz böyük səylər bahasına ölkədə vəziyyəti qısa müddətdə sabitləşdirə və demokratik, hüquqi, dünyəvi dövlət və bazar iqtisadiyyatı qurulmasına yönəldilmiş əsaslı siyasi və iqtisadi islahatların həyata keçirilməsinə başlaya bildik.

Respublika parlamentinə çoxpartiyalılıq əsasında ilk demokratik seçkilər keçirilmişdir, Ümumxalq referendumu yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olunmuşdur və o, insanın zəruri azadlıqlarına və hüquqlarına təminat verir. Onlarca siyasi partiya, yüzlərlə müstəqil kütləvi informasiya vasitəsi söz, vicdan azadlığı, milli azlıqların inkişafı üçün əlverişli şərait - bütün bunlar ölkəmizdə demokratik cəmiyyətin formalaşdığını sübut edir.

İqtisadiyyatın sərbəstləşdirilməsi, inflyasiya proseslərinin minimuma endirilməsi, xarici investisiyaların geniş cəlb edilməsi, torpaq üzərində xüsusi mülkiyyət də daxil olmaqla özəlləşdirilmə proqramının uğurla həyata keçirilməsi Azərbaycan iqtisadiyyatında uzun sürən tənəzzülü aradan qaldırmağa imkan vermiş, istehsalın real artımı və ölkəmizin vətəndaşlarının həyat səviyyəsinin yüksəlməsi başlanmışdır.

Şübhəsiz ki, biz keçid dövrünün obyektiv çətinliklərini hələ də hiss edirik, yetmiş illik totalitar sistemin ağır irsi də özünü göstərir. Ancaq demokratik islahatların uğurla aparılması, respublikamızın vətəndaşlarının mütləq əksəriyyətinin bu islahatları qətiyyətlə dəstəkləməsi Azərbaycanda müstəqilliyin və demokratiyanın dönməzliyindən xəbər verir.

Ermənistan Respublikası tərəfindən edilmiş təcavüzün nəticələri bizim üçün ən böyük problem olaraq qalır. Bu təcavüz nəticəsində Azərbaycan ərazisinin iyirmi faizi işğal edilmiş, bu torpaqların bir milyondan artıq sakini öz yaşayış yerlərindən zorla qovulmuşdur və çadır şəhərciklərində dözülməz şəraitdə yaşayırlar,

Biz ATƏT-in Ermənistan-Azərbaycan münaqişəsinin ədalətlə aradan qaldırılmasına yönəldilmiş səylərini razılıqla qarşılayırıq. 1996-cı ilin dekabrında ATƏT-in Lissabon Zirvə görüşü bu məsələ barəsində son dərəcə mühüm qərar qəbul etmişdir. Lissabon prinsipləri Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınmasından, Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək özünüidarə statusu verilməsindən və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təminatından ibarətdir.

Biz Avropa Şurası Parlament Assambleyasının 1997-ci il 22 aprel tarixli qətnaməsini yüksək qiymətləndiririk. Həmin qətnamədə də Azərbaycan dövlətinin ərazi bütövlüyü Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair Lissabon Zirvə görüşünün prinsipləri təsdiq edilmişdir. Bu sənədlər hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normaları əsasında sülhə nail olmaq üçün yaxşı zəmindir.

1994-cü ilin mayında biz atəşkəs haqqında Ermənistanla saziş bağlamışıq və münaqişənin qəti həllinədək ona əməl etmək niyyətindəyik.

Biz münaqişənin iki mərhələdə aradan qaldırılmasına dair ATƏT-in Minsk qrupu həmsədrlərinin - Rusiya, ABŞ və Fransanın bu yaxınlarda verdikləri təklifi: birinci mərhələdə Ermənistan silahlı birləşmələrini Azərbaycanın işğal olunmuş altı rayonundan çıxarmaq, bu rayonların sakinlərini öz yaşayış yerlərinə qaytarmaq

və müharibə zamanı dağılmış kommunikasiyaları bərpa etmək, ikinci mərhələdə Laçın və Şuşa rayonlarının azad olunması ilə birlikdə Dağlıq Qarabağın statusu məsələsini həll etmək təklifini dəstəkləyirik.

Mən bu gün bir daha bəyan edirəm ki, biz münaqişənin sülh yolu ilə aradan qaldırılması mövqeyində qətiyyətlə dururuq, Ermənistanla möhkəm və uzunmüddətli sülh yaratmaq istəyirik. Təcavüz nəticəsində Azərbaycana böyük zərər vurulmasına baxmayaraq, biz ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin və əməkdaşlığın, xalqlarımızın əmin-amanlığı və tərəqqisinin regionumuzda sülhün və sabitliyin bərpa olunmasını istəyirik.

Xanımlar və cənablar!

1996-cı ilin iyununda Avropa Şurasının Parlament Assambleyası Azərbaycana "Xüsusi qonaq" statusu vermişdir. Biz həmçinin Avropa Mədəniyyət Konvensiyasının, təbii və texnoloji fəlakətlərin qarşısının alınması və bunlardan qorunmağa və yardımın təşkilinə dair açıq parsial sazişin iştirakçısıyıq.

Mən 1996-cı il iyulun 13-də Avropa Şurasının Baş katibinə məktubla müraciət edərək Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv qəbul olunmasını xahiş etmişəm. Avropa insan hüquqları konvensiyasına qoşulmağa hazır olduğumuzu bildirərək, mən Avropa Şurasının Nazirlər Komitəsindən bu məsələ barədə Azərbaycan hökuməti ilə danışıqları sürətləndirməyi xahiş etmişəm.

Biz Avropa Şurasının təsisatları ilə fəal əməkdaşlıq edirik, onların keçirdiyi tədbirlərdə iştirak edirik, Avropa Şurasının nümayəndə heyətlərinə Azərbaycanda hər cür lazımi şərait yaradırıq.

Ölkəmizdə demokratik dəyişikliklərin inkişafında Avropa Şurasının köməyinə böyük ümid bəsləyirik. Ümidvarıq ki, Azərbaycan tezliklə Avropa Şurasının tam hüquqlu üzvü olacaqdır. Biz müasir Avropa demokratiyasının yüksək standartlarına cavab vermək üçün öz tərəfimizdən hər şeyi edəcəyik.

Hörmətli xanımlar və cənablar!

Zirvə görüşümüz coşqun və gərgin iyirminci əsrə yekun vurur, qarşıdakı yüzilliyin vəzifələrini və perspektivlərini müəyyənləşdirir. Azadlıq, demokratiya və humanizm idealları ətrafında sıx birləşmiş yeni Avropa, həmişə olduğu kimi bütün bəşəriyyətin tərəqqisində və çiçəklənməsində mühüm rol oynayacaqdır.

Əminəm ki, çox böyük təbii sərvətlərə, zəngin mədəni və intellektual potensiala malik olan Azərbaycan Respublikası bu nəcib prosesə öz layiqli töhfəsini verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

## Avropa Şurası Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını tanıyır

Avropa Şurası ilə Azərbaycan arasında əlaqələrin tarixi 1992-ci ildən başlayır. Bu dövrdə müstəqilliyini yenicə əldə etmiş respublikamız dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə etibarlı əməkdaşlıq münasibətləri qurmağa cəhd göstərir və bu istiqamətdə müəyyən addımlar atırdı. 1992-ci ildə Azərbaycan "xüsusi dəvət olunmuş qonaq" statusu verilməsi xahişi ilə Avropa Şurasına rəsmi müraciət etdi.

Lakin bu müraciət uzun müddət AŞ-nin diqqətindən kənarda qaldı. Şübhəsiz ki, bunun səbəblərini ilk növbədə Azərbaycan rəhbərliyinin səriştəsiz xarici siyasətində axtarmaq lazım gəlirdi. Doğrudur, burada beynəlxalq birliyin Azərbaycana münasibətdə ikili standartlara üstünlük verməsini də nəzərdən qaçırmaq olmaz. Lakin qeyd etmək lazımdır ki, respublikanın o vaxtkı rəhbərliyi də "buzun" sındırılması üçün konkret və qəti addımlar atmırdı.

Bütün bunlar isə nəticə etibarilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində də özünü aydın şəkildə büruzə verirdi. Avropa Şurası bu münaqişəyə dair qəbul etdiyi ilk sənədlərdə qərəzli və ədalətsiz təhlillərə yol vermiş və problemin əsl mahiyyətini açıqlamağa cəhd göstərməmişdi.

1992-ci ilin fevralında Avropa Şurası Parlament Assambleyasının AŞ-yə üzv olmayan Avropa ölkələri ilə Əlaqələr Komitəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ilk bəyanatı qəbul etdi. Sənəddə Dağlıq Qarabağda vəziyyətin pisləşməsindən narahatlıq ifadə edilir və tərəflərə atəşi dayandırmaq, münaqişəni sülh yolu ilə aradan qaldırmaq tövsiyə olunurdu. Bu bəyanatda Ermənistanla münaqişə bölgəsinə BMT qüvvələrinin gətirilməsi xahişi də öz əksini tapmışdı.

Həmin ilin mart ayının 12-də Avropa Şurasının Nazirlər Komitəsi də münaqişə ilə bağlı bəyanat qəbul etdi. Bu sənəd də problemə obyektiv qiymət vermir və onun mahiyyətini açıqlamırdı. AŞ-nin Nazirlər Komi-təsi mümkün qədər neytral mövqe nümayiş etdirməyə çalışmışdı. Sənəd münaqişənin zor yolu ilə həllinin qəti əleyhinə çıxır və bütün sərhədlərin toxunulmazlığı prinsipinin gözlənilməsini tələb edirdi. Qeyd edək ki, sərhədlərin toxunulmazlığı prinsipinin gözlənilməsi bəyanatın yeganə müsbət məqamı olsa da, sənədin sonrakı hissələrində sərhədlərin dinc yolla və qarşılıqlı razılıq əsasında dəyişdirilməsinin mümkünlüyü öz əksini tapmışdı.

1993-cü ilin aprelində AŞ Nazirlər Komitəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair daha bir bəyanat qəbul olundu. Bəyanata görə, AŞ Nazirlər Komitəsi BMT-nin bölgədə sülhün bərqərar edilməsinə dair tələblərini dəstəkləyir və döyüş əməliyyatlarının dayandırılmasına tərəfdar çıxırdı. AŞ Nazirlər Komitəsi Kəlbəcərdə hərbi əməliyyatların güclənməsindən narahatlığını ifadə etsə də, rayonun erməni qəsbkarları tərəfindən işğal olunması faktını göstərmirdi. Ən maraqlı məqamlardan biri isə bundan ibarət idi ki, Avropa Şurası Nazirlər Komitəsinin qəbul etdiyi sənəddə Ermənistanın adı, ümumiyyətlə, çəkilmirdi, halbuki işğalçılıq əməliyyatları məhz bu ölkə tərəfindən həyata keçirilmişdi.

Avropa Şurasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ədalətsiz mövqe tutmasını sübut edən daha bir hadisə 1994-cü ilin yanvarında baş verdi. Belə ki, qurumun AŞ üzvü olmayan Avropa dövlətləri ilə Əlaqələr Komitəsi Strasburqda münaqişənin həlli ilə bağlı görüş keçirilməsi barədə təşəbbüslə çıxış edərkən, danışıqlara Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələrini də dəvət etmişdi. Bu isə görüşün baş tutmamasına gətirib çıxardı və Azərbaycan tərəfi bu formatda keçiriləcək danışıqlara qatılmayacağını bəyanladı.

Bir qədər sonra, 1994-cü ilin iyulunda Strasburqda Avropa Şurasının təşəbbüsü ilə Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlar keçirildi. Azərbaycan AŞ ilə əlaqələrin inkişafının zəruriliyini nəzərə alaraq bu danışıqlarda iştirak etdi. Görüşün nəticələrindən biri ondan ibarət oldu ki, AŞ PA-nın quruma üzv olmayan Avropa dövlətləri ilə Əlaqələr Komitəsinin sədri Devid Atkinsonun rəhbərliyi ilə regiona nümayəndə heyətinin göndərilməsi qərara alındı.

Noyabrın 14-də nümayəndə heyəti Azərbaycana səfərə gəldi. Bundan bir neçə gün əvvəl, noyabr ayının 10-da isə Avropa Şurası Parlament Assambleyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ilk qətnaməsini qəbul etdi.

"Dağlıq Qarabağda münaqişəyə dair" adlanan bu qətnamə problemə ədalətli qiymət vermir və onun mahiyyətini təhrif edirdi. Qətnamədə may ayının 12-də əldə olunmuş atəşkəsə riayət olunmasından razılıq ifadə edilir və sülh sazişinin yaxın vaxtlarda imzalanacağına böyük ümidlər olduğu bildirilirdi. Burada 20 mindən çox insanın həlak olması və bir milyon insanın qaçqın düşməsi faktı göstərilsə də, qaçqınların azərbaycanlı olması və Ermənistanın təcavüzkar siyasəti nəticəsində öz torpaqlarını tərk etdiyi göstərilmirdi. Qətnamədə hətta belə bir bənd də öz əksini tapmışdı ki, AŞ PA Ermənistan və Azərbaycan müdafiə nazirlərinin və Dağlıq Qarabağ ordu komandanının atəşkəsi gözləmək öhdəliyini alqışlayır. Bu, bir tərəfdən Ermənistanın münaqişədə iştirakını təsdiqləyirdisə, digər tərəfdən Dağlıq Qarabağdakı separatçı rejimi ayrıca bir tərəf kimi təqdim edirdi.

1996-cı ilin 28 iyununda Azərbaycan Avropa Şurasına "xüsusi dəvət olunmuş qonaq" statusu aldı. Bu, artıq AŞ ilə münasibətlərin inkişafında növbəti mərhələnin başlanğıcı kimi xarakterizə olunurdu. "Xüsusi dəvət

olunmuş qonaq" statusu Azərbaycanın tezliklə AŞ-yə tamhüquqlu üzv kimi qəbul olunacağına böyük inam yaratmışdı.

1997-ci ilin aprelində AŞ PA Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair daha bir qətnamə qəbul etdi. "Zaqafqaziyada münaqişələrə dair" qətnamə Abxaziya və Dağlıq Qarabağdakı münaqişələrin həllinə AŞ-nin kömək göstərməsinin zəruriliyini vurğulayırdı. Azərbaycan, Gürcüstan və Ermənistanın AŞ-yə üzv qəbul edilməsində bölgədəki münaqişələrin həlli istiqamətində səylərin də əsaslı rol oynaya biləcəyini göstərən bu sənəddə münaqişələrin həllinin sərhədlərin toxunulmazlığı, region xalqları üçün çoxmillətli sülhməramlı qüvvələr tərəfindən dəstəklənən təminatlı təhlükəsizlik, Abxaziyaya və Dağlıq Qarabağa muxtariyyət statusunun verilməsi, qaçqın və köçkünlərin geri qaytarılması prinsipləri əsasında mümkünlüyü nəzərdə tutulurdu.

Sənədin Dağlıq Qarabağ münaqişəsinə dair bölməsində işğal olunmuş ərazilərin azad edilməsi münaqişənin sülh yolu ilə nizamlanması Avropa Şurasının tövsiyəsi kimi öz əksini tapmışdı. Lakin qətnamənin mənfi cəhətlərindən biri bundan ibarət idi ki, Azərbaycan, Ermənistan və Dağlıq Qarabağın birbaşa danışıqlar aparmasının zəruriliyi vurğulanırdı. Bu isə yenə də Dağlıq Qarabağdakı separatçı rejimin müstəqil tərəf kimi tanınması mənasını verirdi və buna görə də həmin qətnamə də real səciyyə daşımırdı.

2000-ci ilin 28 iyununda AŞ PA Azərbaycanın təşkilata tamhüquqlu üzv qəbul olunması haqqında qərar qəbul etdi. 2001-ci il 17 yanvar AŞ Nazirlər Komitəsi də analoji addım ataraq bu qərarın hüquqi qüvvəyə minməsini təmin etdi. Həmin ilin yanvar ayının 25-də Azərbaycanın Avropa Şurasına qəbul olunması mərasimi keçirildi və bununla da ölkəmizin Avropa ilə əlaqələrinin tarixində yeni mərhələ start götürmüş oldu.

AŞPA-da Azərbaycanı təmsil edən nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin təşəbbüskarlığı və diplomatik fəallığı nəticəsində elə ilk sessiyadan etibarən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətləri özündə əks etdirən sənədlər yayılmağa başladı. Azərbaycanlı deputatlar AŞ PA-nm müxtəlif dövlətlərdən olan üzvləri ilə yaxşı münasibətlər qurur, ölkəmizin qarşılaşdığı problemlər, əldə etdiyi nailiyyətlər, eləcə də torpaqlarımızın 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyondan çox insanın qaçqın və məcburi köçkün kimi yaşaması barəsində ətraflı məlumatlar verirdilər.

2001-ci ilin yanvarında Azərbaycan və Ermənistanın AŞ-yə tamhüquqlu üzv kimi qəbul olunduğu sessiyada İngiltərədən olan deputat Corc Teylor Azərbaycanda Dağlıq Qarabağda ermənilərin törətdiyi vəhşiliklərdən danışdı. O, burada insan hüquqlarının kobud şəkildə tapdalandığını, ermənilərin Azərbaycana qarşı təcavüzkar siyasət apardıqlarını bəyan etdi. C.Teylor qaçqınların və məcburi köçkünlərin ağır vəziyyətdə yaşadığına diqqəti çəkərək AŞ-nın bu sahədə ciddi addımlar atmasının zəruriliyini bildirdi. O, ermənilərin işğal olunmuş ərazilərdə dağıdıcılıqla məşğul olduqlarını, buradakı mədəniyyət abidələrini, xidməti binaları, məktəbləri, xəstəxanaları məhv etdiklərini söylədi: "Dağlıq Qarabağda ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş genosidə siyasi qiymət verilməlidir", - deyə sərt bəyanatla çıxış edən C.Teylorun bu fikirləri ermənilərin ciddi etirazı ilə qarşılansa da, obyektiv həqiqətləri özündə əks etdirirdi. Bu ermənilərin AŞ PA-da qarşılaşdıqları ilk sürpriz idi.

Bundan sonra da Azərbaycan nümayəndə heyəti ermənilərin işğalçılıq siyasətinin beynəlxalq aləmdə ifşası istiqamətində mühüm işlər görə bildi. Məhz Azərbaycan nümayəndə heyətinin fəallığı sayəsində AŞ Nazirlər Komitəsinin 108-ci sessiyasının rəsmi məlumatında Ermənistanın təcavüzkar siyasəti pislənilirdi.

Həmin sənəddə aydın şəkildə qeyd olunurdu ki, Avropa Şurası ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığını dəstəkləyir. Ermənistan bu sənədə millətlərin öz müqəddəratını təyinetmə hüququnun da salınmasını istədi. Lakin heç kim bu təklifi dəstəkləmədi və rəsmi məlumat olduğu kimi qəbul edildi. Nəticədə 43 dövlətdən yalnız Ermənistan həmin sənədin əleyhinə çıxdı.

Bu, erməni deputatlarının ilk ciddi səhvi idi. Çünki ərazi bütövlüyünün dəstəklənməməsi, faktiki olaraq, beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş normalarına qarşı çıxmaq demək idi. Bir qədər sonra Azərbaycan nümayəndə heyəti bu vacib məqamdan istifadə edərək Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımaması faktı ilə bağlı AŞ-yə sorğu təqdim etdi.

2001-ci il aprelin 24-də Strasburqda AŞ PA-nın sessiyasında "Avropanın iqtisadi və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizəsi" mövzusunda keçirilən müzakirələrdə Azərbaycan nümayəndə heyəti də fəal iştirak etdi.[1] Bu müzakirələrdə nümayəndə heyətimizin rəhbəri cənab İlham Əliyev çıxış edərək ölkəmizi narahat edən məsələlərə toxundu: "Azərbaycan bu məsələdən, xüsusilə narahatdır. Çünki Avropada mütəşəkkil cinayətkarlığın mərkəzlərindən biri məhz bizim ərazidədir. "Dağlıq Qarabağ respublikası" deyilən ərazidə nəinki Azərbaycanın hakimiyyət orqanlarının bu cinayətkarlıqla mübarizəyə məsul olan beynəlxalq təsisatların da heç bir nəzarəti yoxdur.

Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması ilə nəinki bir milyon azərbaycanlı qaçqın evsiz-eşiksiz qalıb, çoxsaylı şəhərlərimiz, kəndlərimiz, mədəniyyət abidələrimizin, əcdadlarımızın qəbirləri büsbütün dağıdılıb, bir sözlə, erməni işğalçılarının zəbt etdikləri ərazidə bütün infrastruktur məhv edilib, həm də ermənilərin işğal etdikləri ərazidə mütəşəkkil cinayətkarlığın inkişafı üçün çox əlverişli şərait yaranmışdır". Daha sonra cənab İlham Əliyev Azərbaycanda yaranmış vəziyyətin ağırlığını göstərən faktları sadaladı:

1. "Dağlıq Qarabağ respublikası" deyilən ərazidən narkotik bitkilərin yetişdirilməsi və daşınması üçün istifadə edilir. Bu fakt ABŞ Dövlət Departamentinin narkotik maddələr üzərində beynəlxalq nəzarət strategiyasına dair 2000-ci il mart tarixli hesabatında öz əksini tapmışdır. Narkotiklərlə məşğul olan işbazlar və tiryək alverçiləri orada özlərini təhlükəsiz və çox rahat hiss edirlər. Onları "Dağlıq Qarabağ respublikası"nın bədnam rəhbərləri müdafiə edir. Həmin rəhbərlər narkotiklərin satışından gələn pulları Azərbaycanın işğal olunmuş ərazisini əldə saxlamaq və muzdlulara haqq ödəmək üçün istifadə edirlər.

2. Yaxşı məlumdur ki, Rusiyanın keçmiş rəhbərləri özlərinin müvafiq strukturlarına Ermənistana qanunsuz yolla bir milyard dollarlıq silah ötürməyə icazə vermişdilər.

Həmin silahların çox hissəsi Dağlıq Qarabağda və Azərbaycanın işğal edilmiş digər ərazilərində yerləşdirilmişdir. Mən sual edirəm, Ermənistan və Dağlıq Qarabağ bu silahları almaq üçün bu qədər pulu haradan tapdı? Bu regiondakı vəziyyəti bilən hər kəsə aydındır ki, Ermənistanda iqtisadi vəziyyət çox pisdir. Ermənistan əsas etibarilə xarici yardımlar hesabına yaşayır. Daimi iqtisadi tənəzzül ucbatından yüz minlərlə adam Ermənistanı tərk etmişdir.

Cavab aydındır. Ya onlar həmin silahları pulsuz alıblar - buna güman çox azdır - ya da narkotiklərin satışından əldə olunan pula alırlar.

3. Dağlıq Qarabağda mövcud olan qanunsuz iqtisadi fəaliyyət bu qondarma "respublikanı" "çirkli" pulların "yuyulması" əməliyyatları sahəsində məşhurlaşdırmışdır.

4. Ermənilər Dağlıq Qarabağın ərazisində silahlı birləşmələrə təlim keçirlər, bu birləşmələr terrorizmə qarşı mübarizə üzrə beynəlxalq konvensiyaların nəzarətindən tamamilə kənardadır".[1]

Bu məlumatları diqqətə çatdırdıqdan sonra Azərbaycan nümayəndə heyətinin rəhbəri bütün Avropa strukturlarından erməni təcavüzkarlarının, işğalçıların torpaqlarımızdan çıxması, bir milyon azərbaycanlı qaçqının insani hüquqlarını pozmağa və torpaqlarımızdan öz cinayətkar əməllərindən ötrü istifadə etməyə son qoymaları üçün ciddi tədbirlər görməyi xahiş etdi.

Sessiya zamanı nümayəndə heyətimiz Ermənistanda və Dağlıq Qarabağda azərbaycanlı girov və əsirlərin olması faktı ilə bağlı xüsusi sənədin layihəsini hazırlayaraq deputatlar arasında yaydı. Bu sənəddə torpaqlarımızın işğalı nəticəsində 4959 nəfərin itkin düşdüyü, onlardan 1092 nəfərinin 1992-2001-ci illər ərzində azad edildiyi və bu insanların 176 nəfərinin xəstə olduğu göstərilirdi.

Sənəddə qeyd olunurdu ki, Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazisində 783 nəfər əsir saxlanılır, onlardan 18-i uşaq, 43-i qadın, 56 nəfəri qocadır. Layihədə Ermənistanın bu faktı inkar etdiyi də bildirilirdi və faktlarla göstərilirdi ki, əsirlikdə olanlar qul kimi işlədilir, daim təhqir olunur və işgəncələrə məruz qalırlar. Onlar normal qidalanmır, lazımi tibbi yardım almırlar.

Bu sənədə Macarıstan, Rusiya, Lüksemburq, İspaniya, Türkiyə, Niderland, Latviya, Litva, İsveç, Ukrayna və digər ölkələrdən olan bir çox deputatlar da imza atmışdılar və layihə AŞ PA-nın sessiyasında iştirak edən dövlətlərin parlament nümayəndə heyətləri arasında yayılmışdır.

Bu sessiya ərəfəsində Fransa parlamenti və Senatı qondarma "erməni soyqırımı"nı tanıması barədə qərar çıxarmışdı. Bu fürsətdən istifadə etməyə çalışan erməni deputatları, Avropa Şurası Parlament Assambleyasında Ermənistan parlamentini təmsil edən deputatlar "məzlum erməni millətinin Osmanlı imperiyası tərəfindən soyqırımına məruz qalmasına dair sənəd hazırlamışdılar. Aparılmış təbliğat nəticəsində bir neçə deputat bu sənədə imza atmışdı.

Buna cavab olaraq Azərbaycan nümayəndə heyəti ötən əsrin əvvəlindən bu günə kimi ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklər, indi isə ərazimizin 20 faizini işğal etmələri haqqında bəyannamə hazırlayaraq Avropa Şurasının üzvü olan ölkələrin deputatları arasında yaydı.

Həmin bəyannamədə bildirilirdi ki, ermənilər "böyük Ermənistan" yaratmaq iddiası ilə 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirmiş, 1918-ci ilin martında Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və başqa ərazilərdə azərbaycanlılara qarşı qətlim törətmişlər.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsi başlanandan sonra yüz minlərlə azərbaycanlı yenidən öz tarixi torpaqlarından deportasiya olunmuş, 1992-ci il fevral ayının 26-da Xocalı əhalisi ermənilər tərəfindən bütünlüklə məhv edilmiş, şəhər xarabazara çevrilmişdir.

Azərbaycan nümayəndə heyəti bununla kifayətlənməyərək həm də geniş təbliğat aparmış və bunun nəticəsində ermənilərin heç bir əsası olmayan sənədinə imza atmış bir neçə deputat öz imzalarını geri götürmüşdü.

2001-ci ilin yay sessiyası da Azərbaycan nümayəndə heyətinin gərgin və səmərəli fəaliyyəti ilə yadda qaldı.

Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Milli Məclisinin nümayəndə heyəti tərəfindən hazırlanmış və iyunun 26-da deputat Gültəkin Hacıyevanın adından Nazirlər Komitəsinə ünvanlanmış "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır" sərlövhəli müraciət rəsmi sənəd kimi AŞ PA-nın deputatları arasında yayıldı. Həmin sənəddə qeyd olunurdu ki, Avropa Şurasının Nazirlər Komitəsinin mayın 10-11-də keçirdiyi 108-ci sessiyasında Ermənistanın Xarici İşlər naziri Vardan Oskanyan sessiyada bildirmişdir

ki, Dağlıq Qarabağ münaqişəsi həll edilməyincə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq niyyətində deyil və tanımayacaq. Bunu nəzərə alaraq nümayəndə heyəti Azərbaycanın və Ermənistanın Avropa Şurasının tamhüquqlu üzvü olduğunu; ölkəmizin ərazi bütövlüyünün BMT, ATƏT, Avropa Şurası və bütün dünya dövlətləri tərəfindən tanındığını; Avropa Şurasının üzvü olan bir dövlətin - Ermənistanın Avropa Şurasının üzvü olan başqa bir dövlətin - Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmədiyini; Azərbaycan torpaqlarının 20 faizini Ermənistanın işğal etdiyini və bunun nəticəsində insan hüquqlarını kütləvi sürətdə pozduğunu nəzərə alaraq Avropa Şurasının Nazirlər Komitəsindən Ermənistan Respublikasını beynəlxalq qanunların əsas prinsiplərindən biri olan dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipinə hörmət etməyə və Ermənistan hərbi qüvvələrini Azərbaycan ərazisindən dərhal çıxarmağa çağırmağı xahiş edirdi.

Azərbaycan nümayəndə heyətinin hazırladığı daha iki mühüm sənəd iyunun 27-də rəsmi sənəd kimi AŞ PA-nın deputatları arasında paylanmışdır. Azərbaycan mədəniyyət abidələrinin ermənilər tərəfindən dağıdılması və mənimsənilməsi barədə sənədi 18 deputat imzalamışdır. Bu sənəddə qeyd olunurdu ki, Azərbaycan Respublikasına qarşı erməni təcavüzünün faciəvi nəticələrindən biri də odur ki, Azərbaycan torpaqlarının 20 faizini işğal etməkdən əlavə, ermənilər ölkənin zəbt olunmuş bölgələrində Azərbaycanın milli-mənəvi irsini məhv edirlər.

Nümayəndə heyətinin yaydığı ikinci sənəd Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji tarazlığın Ermənistan tərəfindən pozulmasına aid idi. Həmin sənədə 16 deputat imza atmışdı.

2001-ci ilin sentyabrında AŞ PA sədri Rassel Conston Bakıya gəldi. Səfər zamanı bir sıra əhəmiyyətli görüşlər keçirən R.Conston Dağlıq Qarabağdakı separatçı rejimin keçirdiyi qanunsuz "seçkilərə" də münasibətini bildirdi. Ö, AŞ-nin bu seçkiləri tanımadığını və DQ-nin Azərbaycanın tərkib hissəsi olduğunu bəyan etdi. AŞ PA sədri Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını da öz çıxışlarında dəfələrlə təsdiqlədi.

Sentyabrda AŞ PA-nın payız sessiyasında Azərbaycan tərəfi iki sənəd təqdim etdi. Birinci sənəd Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin AŞ PA-da müzakirəsi ilə bağlı olmuşdu. Hazırlanmış layihədə Azərbaycan torpaqlarının işğalı, bir milyondan çox insanın qaçqın və məcburi köçkün vəziyyətində yaşaması, Ermənistanın regionda sülhə və sabitliyə təhlükə yaradan siyasət yürütməsi və digər mühüm faktlar öz əksini tapmışdı. Azərbaycan nümayəndə heyətinin hazırladığı bu sənəd AŞ PA-da 30-a qədər ölkəni təmsil edən 50 deputat tərəfindən imzalanmışdı. Layihədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal olunduğu qeyd edilirdi. Bu sənəd AŞ PA-da yayıldı və təşkilatın rəsmi sənədləri sırasına salındı.

Azərbaycan nümayəndə heyətinin hazırladığı ikinci sənəd isə "Avropada təhsilin gələcək inkişafı kontekstində Azərbaycanda qaçqın və məcburi köçkünlərin təhsil hüquqları" adlanırdı. Bu sənəddə Ermənistanın təcavüzü nəticəsində yüz minlərlə azərbaycanlının öz yurd-yuvalarından didərgin düşməsi nəticəsində yaranmış vəziyyət haqqında geniş məlumat verilirdi. Minlərlə uşağın təhsil almaq hüququnun Ermənistan tərəfindən kobud şəkildə pozulduğunu qeyd edən Azərbaycan nümayəndələri AŞ-nin nüfuzlu beynəlxalq təşkilat kimi bu mühüm problemi diqqət mərkəzində saxlamasının zəruriliyini ifadə etmişdilər. Qeyd edək ki, bu sənəd də kifayət qədər geniş rezonans doğurdu və Ermənistanın işğalçılıq siyasətinin nəticələrinin beynəlxalq ictimaiyyətə açıqlanması istiqamətində mühüm addım kimi yadda qaldı.

Erməni deputatları bu dəfə də Azərbaycan nümayəndə heyətinin gözlənilməz addımı ilə qarşılaşdılar və əsas diqqətlərini sənəddə əksini tapmış faktların təkzib edilməsinə ayırmalı oldular. Qeyd edək ki, cənab İlham Əliyevin başçılığı ilə nümayəndə heyətimizin fəallığı hər dəfə erməniləri çıxılmaz vəziyyətə salaraq münaqişə barəsində dünyada obyektiv təsəvvür formalaşmasına xidmət etməklə yanaşı, qarşı tərəfin də əks-təbliğat aparmasına imkan vermirdi. Çünki hər sessiyada azərbaycanlı deputatlar yeni sənədlər təqdim edirdi ki, bu da AŞ PA-da böyük rezonans yaradır və həm Ermənistana qarşı münasibətin pisləşməsinə, həm də erməni deputatlarının Azərbaycana qarşı addımlarının qarşısının alınmasına gətirib çıxarırdı.

Azərbaycan nümayəndə heyəti AŞ Nazirlər Komitəsinin 108-ci sessiyasında ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin əleyhinə çıxmış Ermənistanla bağlı sorğu göndərmişdi. Bu sorğuda Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımamasının AŞ PA-nın və ümumiyyətlə, beynəlxalq hüququn prinsiplərinə uyğun gəlmədiyi qeyd olunurdu. Azərbaycan nümayəndə heyəti bu məsələyə dair AŞ PA-nın rəsmi mövqeyini öyrənmək istəyirdi. Bu sorğu əsasında müzakirə aparıldı və Nazirlər Komitəsi Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı prinsipini tanıdığını rəsmən elan edərək Ermənistanı da bu sənədə imza atmağa dəvət etdi. Nəticədə Ermənistan bu məsələdə mövqeyini dəyişdi və sənədə imza atmağa məcbur oldu.

AŞ PA-nın sentyabrın 25-də keçirilmiş iclasında beynəlxalq terrorizm məsələsi ətrafında müzakirələr aparıldı. Ayrı-ayrı ölkələri təmsil edən deputatlar çıxış edərək terrorizmin genişlənməsini pisləmiş və onun bəşəriyyətin ümumi bəlasına çevrilməsindən narahatlıqlarını bildirmişdilər. Erməni deputatı Hovanesyan iclasda çıxış edərək bildirdi ki, guya Ermənistan heç bir terror aktını dəstəkləmir və terrorizmə qarşı mübarizə aparır. O, Dağlıq Qarabağın erməni əhalisinə qarşı Azərbaycanın guya terror siyasəti yeritdiyini, məşhur terrorçu Ben

Ladenin Bakı ilə telefon əlaqəsi saxladığını iddia edən gülünc mülahizələr söyləmişdi. AŞ PA-da Azərbaycan nümayəndə heyətinin başçısı, Milli Məclisin deputatı İlham Əliyev isə çıxış edərək erməni nümayəndələrinin bu iftiralarının heç bir əsası olmadığını faktlarla sübut etdi: "Tam məsuliyyətlə sizə deməliyəm ki, bu, tamamilə əsassız yalandır. Bu əsassız iddia heç kim tərəfindən təsdiq olunmayıb və mən bütün həmkarlarıma müraciətlə xahiş etmək istəyirəm ki, Avropa Şurasının yüksək kürsüsündən öz siyasi məqsədləri naminə böhtan yaymaq üçün istifadə etməsinlər.

Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktları ilə bağlı bizim hamımız böyük sarsıntı keçirdik. Azərbaycan nümayəndə heyətinin adından mən istərdim ki, minlərlə günahsız insanın ölümü və yaralanması ilə nəticələnmiş terror aktları ilə bağlı Birləşmiş Ştatların hökumətinə və Amerika xalqına səmimi başsağlığı verim.

Mən həm də istərdim ki, bu dəhşətli cinayəti törətmiş adamların tapılması və onların ədalət məhkəməsinə cəlb olunması ilə əlaqədar Azərbaycan hökuməti adından Birləşmiş Ştatlara tam dəstəyimizi bir daha bildirim.

Birləşrniş Ştatlara qarşı törədilmiş terror aktları aydın şəkildə göstərir ki, hamımızın yaşadığı dünya nə dərəcədə kövrəkdir. Heç kim özünü tam təhlükəsiz hiss edə bilməz. Ona görə də beynəlxalq birlik dünyanın hər yerində terrorizmin bütün formalarına qarşı mübarizədə birləşməlidir", - deyə cənab İlham Əliyev vurğulamışdır. Nümayəndə heyətimizin rəhbəri Ermənistanın Azərbaycana qarşı törətdiyi terror aktlarına da diqqəti çəkərək bildirdi ki, Azərbaycan terrorizmdən çox əziyyət çəkmişdir. "Ermənistanın təcavüzü başlanandan erməni terrorçu qrupları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmişdir. Bu terror aktları nəticəsində Azərbaycanda 2 min adam yaralanmışdır. Azərbaycan xalqına qarşı terror aktları qatarlarda, avtobuslarda, gəmilərdə, metro qatarlarında törədilmişdir. Erməni terrorçularının Azərbaycan xalqına qarşı törətdiyi terror aktları Ermənistan silahlı qüvvələrinin Azərbaycana genişmiqyaslı təcavüzünün əsas elementlərindən biridir. Bu terrorizmin nəticəsi kimi on minlərlə azərbaycanlı öldürülmüş, bir milyon adam qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Erməni terrorçu təşkilatı ASALA Ermənistanın Azərbaycana qarşı son 13 ildə həyata keçirdiyi terror və soyqırımı siyasətində çox fəal rol oynamışdır. Hazırda qondarma "Dağlıq Qarabağ respublikası"nın ərazisi və eləcə də Azərbaycanın işğal olunmuş digər rayonları tam nəzarətsiz ərazilərdir. Qanunsuzluq hökm sürən bu ərazilərdə erməni rəsmiləri təkcə Ermənistandan deyil, digər ölkələrdən gələn terrorçuların da hazırlanması üçün düşərgələr yaradıblar. Dağlıq Qarabağın ərazisi narkotik maddələrin daşınması üçün istifadə olunur və narkotiklərin istehsalından, daşınmasından əldə edilən külli miqdarda pul terror məqsədləri üçün xərclənir".

2002-ci ilin aprelində AŞ PA-nın yaz sessiyasında Azərbaycan nümayəndə heyəti fəal surətdə iştirak edərək bir sıra məsələlərlə bağlı mühüm sənədlərin yayılmasına nail oldu. Həmin sənədlərdən biri "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində nüvə texnologiyaları və nüvə tullantıları haqqında" adlanırdı. Bu sənəddə Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə nüvə tullantılarının basdırılması və burada nüvə texnologiyalarının saxlanılması barədə faktlar öz əksini tapmışdı. 80 deputatın və 30 dövlətin imzaladığı sənəd AŞ PA-nın rəsmi sənədləri sırasına daxil edildi.[1] Sənəddə öz əksini tapmış faktları Ermənistan nümayəndə heyətinin üzvləri təkzib etməyə çalışsalar da, inandırıcı arqumentlər təqdim edə bilmədilər. Digər tərəfdən, azərbaycanlı deputatlar da AŞ PA-nın üzvləri ilə fəal əməkdaşlıq əlaqələri qurmağa müvəffəq olduqlarından artıq Ermənistan Assambleyada təklənmiş vəziyyətə düşmüşdü və bu ölkəni təmsil edənlər Azərbaycan nümayəndə heyətinin addımlarına qarşı adekvat tədbirlər görə bilmirdilər.

"AŞ-yə üzv olan dövlətlərdə beynəlxalq prinsip və qaydalara riayət olunması haqqında" 20 ölkəni təmsil edən 40-dan çox deputatın imzaladığı daha bir sənəddə isə Ermənistanın işğalçılıq əməllərinin regionda təhlükəsizlik üçün problem yaratdığı və AŞ üzvü olan ölkələrin qəbul etdiyi beynəlxalq hüquq normaları ilə bir araya sığmadığı qeyd olunurdu. Bu sənəd də AŞ PA-nın əksər üzvləri tərəfindən dəstəklənmişdi.

2002-ci ilin iyununda AŞ PA-nın yay sessiyası zamanı Azərbaycan nümayəndə heyəti bir sıra məsələlərdə irəliləyiş əldə olunmasına, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair təşkilat üzvlərinin məlumatlandırılması istiqamətində uğurlu addımlar atılmasına nail oldular. Sessiya başlanmamışdan əvvəl və sessiyanın gedişi zamanı da nümayəndə heyəti burada yüksək səviyyəli görüşlər keçirir və ölkəmizin qarşılaşdığı problemlər ətrafında təşkilatın nüfuzlu şəxsləri ilə müzakirələr aparırdılar. Belə görüşlərdən biri də AŞ PA sədri Piter Şiderlə keçirildi. Burada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun ağrılı nəticələri ilə bağlı danışıqlar keçirildi və Azərbaycan nümayəndə heyəti AŞ PA sədrindən bu məsələni diqqətdə saxlamağı xahiş etdi. Ölkəmizi təmsil edən deputatlar qaçqınların və məcburi köçkünlərin yaşayış tərzinin dözülməz olduğu barədə də ətraflı məlumat verərək beynəlxalq təşkilatlar tərəfindən onlara humanitar yardımın artırılmasının zəruri olduğuğunu bildirdilər.

Nümayəndə heyətinin AŞ PA-nın Baş katibi Valter Şvimmerlə görüşündə də bu məsələlər diqqət mərkəzində saxlanıldı. Şübhəsiz ki, burada deputatların əsas məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təşkilatın diqqət mərkəzində qalmasına nail olmaq və Azərbaycana qarşı münasibətdə mövcud olan ikili standartların aradan qaldırılması üçün müəyyən təbliğatı işlər aparmaqdan ibarət idi. Artıq sessiya başladıqdan sonra müəyyən uğurların əldə edildiyi məlum oldu. 27 iyunda AŞ PA-nın Miqrasiya, qaçqınlar və

demoqrafiya komissiyasının sədri Rutqabi Vermot-Manqold "Ermənistan, Gürcüstan və Azərbaycanda qaçqınların vəziyyəti" mövzusunda məruzə ilə çıxış etdi. O öz nitqində Azərbaycanda 900 min, Ermənistanda 150 min qaçqın olduğunu, Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini dedi. Qeyd edək ki, R.Vermot-Manqold azərbaycanlı qaçqın və məcburi köçkünlərin sayını dəqiq göstərməmişdi. Çünki rəsmi statistikada qaçqın və köçkünlərin sayı bir milyondan çox göstərildiyi halda, onun çıxışında bu rəqəmin 900 min civarında olduğu qeyd edilirdi. Bununla belə, bu çıxış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbləri barədə müəyyən qədər obyektiv təsəvvür yaradır və həqiqətin avropalı deputatın dilindən səslənməsi faktların obyektiv olduğuna daha böyük inam yaradırdı. Rutqabi Vermot-Manqold on minlərlə Məhsəti türkünün də Azərbaycanda məskunlaşdığını bildirdi. Qaçqınların çox ağır şəraitdə yaşadığını qeyd edən deputat onların sosial vəziyyətini yaxşılaşdırmaq üçün bütün beynəlxalq təşkilatların humanitar yardım göstərməsinin zəruriliyini vurğuladı. Sessiyada Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyev də geniş çıxış edərək qaçqınların vəziyyətinin ağır, Azərbaycanda hər 8 nəfərdən birinin qaçqın olduğuna diqqəti çəkdi. O, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinə beynəlxalq ictimaiyyətin göz yummamalı olduğunu və bu məsələyə konkret münasibət bildirilməsinin vacibliyini önə çəkdi. Ermənistandan, işğal olunmuş ərazilərimizdən və Özbəkistandan gəlmiş qaçqın və məcburi köçkünlərə Azərbaycanda dövlət tərəfindən böyük qayğı göstərildiyini, bununla belə, onların sosial şəraitinin yaxşılaşdırılması üçün dünya ictimaiyyətinin köməyinə ehtiyac olduğunu vurğulayan İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ədalətli münasibət bildirilməsinin zəruriliyini bir daha vurğuladı: "Nə vaxta kimi Avropa belə bir fakta göz yumacaq ki, Avropa Şurasının bir üzvü olan Ermənistan başqa bir üzvün - Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayır?" - deyə o bildirdi. Azərbaycan nümayəndə heyətinin bu çıxışı sessiyada böyük rezonans doğurdu və problemə obyektiv şəkildə münasibət bildirməyin vaxtının çatdığını ortaya qoydu. Məhz bu çıxış AŞ PA deputatlarını münaqişənin nəticələri barədə təşkilatın ədalətli mövqe tutmasının vacib olduğuna inandırmışdı. Görünür elə bunun nəticəsi idi ki, həmin sessiyada Terri Devis AŞ PA-nın Dağlıq Qarabağ üzrə məruzəçisi təyin edildi. Qeyd edək ki, ermənilər Azərbaycan və Ermənistanın AŞ-ya üzv qəbul olunmasından sonra Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçinin təyin olunmasına həmişə etiraz edir və bu ideyanın həyata keçirilməsinə mane olmağa çalışırdılar. Lakin Azərbaycan nümayəndə heyətinin prinsipial mövqeyi və cənab İlham Əliyevin rəhbərliyi altında aparılmış ardıcıl diplomatik mübarizə sayəsində bu təklif AŞ PA üzvləri tərəfindən dəstəkləndi.

2002-ci ilin sentyabrında payız sessiyasında Azərbaycan və Ermənistanın AŞ qarşısında götürdükləri öhdəliklərin yerinə yetirilməsi vəziyyəti müzakirə olundu. Azərbaycanın təkidi ilə Ermənistan barədə qətnaməyə Azərbaycan torpaqlarının işğal olunması, qaçqınlar və məcburi köçkünlərin bu işğal nəticəsində öz torpaqlarından didərgin düşməsi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbləri barədə düzəlişlər edildi. Bu məsələlər Azərbaycana aid qətnamədə də öz əksini tapdı. Ermənilər ciddi müqavimət göstərsələr də, qətnamənin mətninə Azərbaycan tərəfinin təklif etdiyi düzəliş və əlavələrin aradan qaldırılmasına nail ola bilmədilər.

2003-cü il yanvarın 27-də isə Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev AŞ PA-nın sədr müavini və büro üzvü vəzifələrinə seçildi.[1] Bu, ölkəmizin AŞ ilə əlaqələrinin kifayət qədər yüksək səviyyədə inkişaf etdiyini və nümayəndə heyətimizə cənab İlham Əliyevə böyük etimadın mövcud olduğunu təsdiqləyən çox mühüm bir hadisə idi. Azərbaycan nümayəndə heyəti rəhbərinin AŞ PA kimi nüfuzlu beynəlxalq təşkilatın sədr müavini və büro üzvü seçilməsi isə daha ciddi nailiyyətdir və bunu heç kim inkar edə bilməz. AŞ Azərbaycan üçün yeni, eyni zamanda daha yüksək tribuna kimi qiymətləndirilirdi və onun fəaliyyətini istiqamətləndirən əsas vəzifələrdən birində Azərbaycan vətəndaşının əyləşməsi ölkəmizə göstərilən etimadın təcəssümü kimi səciyyələndirilməlidir. Diplomatiya tariximizdə analoqu olmayan bu faktı yetərincə qiymətləndirmək üçün, sadəcə, on il bundan öncə xarici siyasətin ən müxtəlif sahələrində qarşılaşdığımız problemləri xatırlamaq kifayətdir. Bu möhtəşəm hadisə cənab İlham Əliyevin beynəlxalq aləmdə nüfuzlu siyasi xadim kimi tanındığını, onun fəaliyyətinin dünyanın ən qüdrətli dövlətləri tərəfindən diqqətlə izlənildiyini sübuta yetirən çoxsaylı faktlardan biri idi və sonrakı mərhələdə də biz onun siyasi nüfuzunun məhz şəxsi keyfiyyətlərinin zəruri etirafı kimi başa düşüldüyünün şahidi olduq.

Qeyd edək ki, cənab İlham Əliyevə göstərilən bu etimadın arxasında kifayət qədər ciddi arqumentlər dayanırdı. Avropa Şurasına tamhüquqlu üzv qəbul edildikdən sonra Azərbaycan öz milli maraqları ilə bağlı problemlərin beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə çıxarılması istiqamətində prinsipial addımlar atmağa müvəffəq olmuşdur. Azərbaycan nümayəndə heyətinin AŞ PA-nın sessiyasında nümayiş etdirdiyi fəallıq bu prosesin uğurlu inkişafını təmin edə bilmişdir. Cənab İlham Əliyev nümayəndə heyətinin fəaliyyətini milli mənafelərimizin effektli şəkildə müdafiəsinə və Ermənistanın işğalçılıq siyasətinin beynəlxalq miqyasda ifşasına yönəltməklə yüksək keyfiyyətlərə malik bir lider olduğunu nümayiş etdirə bilmişdir. Məhz onun xüsusi siyasi uzaqgörənliyinin nəticəsi idi ki, təşkilatın və onun ayrı-ayrı komitələrinin demək olar, hər iclasında ermənilər azərbaycanlı deputatların yeni "sürprizləri" ilə qarşılaşırdılar.

AŞ PA sədrinin müavini və büro üzvü kimi fəaliyyətə başlayan cənab İlham Əliyevin bu vəzifədəki ilk addımı da Ermənistanın təcavüzkar siyasətinin nəticələrinin beynəlxalq aləmə çatdırılmasından ibarət oldu. Cənab İlham Əliyev Parlament Assambleyasının 2003-cü il yaz sessiyasında deputat Əli Abbasovun "Cənubi Qafqazda mədəniyyətin vəziyyəti" mövzusunda məruzəsinə dair çıxışında Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycana aid külli miqdarda mədəniyyət abidələrinin dağıdılması haqqında faktlara toxunaraq bu sənəddə əksini tapmış statistik göstəricilərin real həyat həqiqətlərinə əsaslandığını inandırıcı dəlillər əsasında sübut etmişdir. Nəticədə erməni deputatlarının işğal faktını sənəddən çıxarılması ilə bağlı təklifi rədd olundu. Lakin ermənilərin narahatlığı təkcə bu məsələnin müzakirəsi zamanı üzə çıxmamışdı və Azərbaycan nümayəndə heyətinin başçısı cənab İlham Əliyevə sessiyanın iclasına sədrlik etmək səlahiyyətinin verilməsi onları daha çox qıcıqlandırmışdı. Bütün bunlara baxmayaraq, ermənilərin iddiaları təmin olunmadı və onlar növbəti dəfə bu nüfuzlu beynəlxalq təşkilatın sessiyasında uğursuzluğa düçar oldular.

Həmin sessiyada AŞ PA-nın bürosunda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edildi. Müzakirələr zamanı Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasət yürütməsi qəti şəkildə pislənildi və bunun bütün beynəlxalq hüquq normalarına zidd olduğu bəyanlandı. Bu, Ermənistanın işğalçı dövlət olmasının və Azərbaycan ərazilərini qəsb etməsinin AŞ PA tərəfindən təsdiqləndiyini sübut edən növbəti fakt idi.

2003-cü ilin yay sessiyasında da Azərbaycan nümayəndə heyəti nəzərəçarpacaq fəallıq nümayiş etdirə bildi. Bu sessiya zamanı ölkəmizin qarşılaşdığı problemlərlə bilavasitə bağlı olan bir məsələ - "Avropada muxtar vilayətlərin müsbət təcrübəsi" mövzusunda müzakirələr aparıldı. AŞ PA sədrinin müavini və büro üzvü, Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin təklifi ilə muxtar vilayətlərin ərazi bütövlüyünü pozmaq səlahiyyətlərinə malik olmadığı barədə müddəa sənədə əlavə edildi. Qeyd edək ki, ermənilər bu təklifə qarşı ciddi müqavimət göstərdilər və belə bir maddənin sənədə daxil edilməsinə lüzum olmadığına AŞ PA deputatlarını inandırmaq üçün müxtəlif arqumentlər gətirdilər. Lakin cənab İlham Əliyevin qətiyyətli, eyni zamanda məntiqli çıxışları ermənilərin təklifinin keçməsinə imkan vermədi. Nəticədə sənədə "muxtariyyət verilməsi dövlətin özünün suverenliyinə və ərazi bütövlüyünə əsaslanmalıdır" cümləsi əlavə edildi. Bu, faktiki olaraq, Dağlıq Qarabağdakı separatçı rejimin müstəqillik tələblərinin qarşısına sədd çəkən çox mühüm bir addım idi. Çünki artıq belə bir maddənin AŞ PA sənədlərində öz əksini tapması Dağlıq Qarabağdakı rejimin müstəqillik tələblərinin hüquqi cəhətdən əsassız olduğunu göstərirdi.

Qısa vaxt ərzində azərbaycanlı nümayəndələr Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair faktları Avropanın mərkəzindən dünya ictimaiyyətinə bəyan edə bildilər. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları, işğal olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhvi, hərbi əsirlər və girovların saxlanma şəraiti, ermənilərin qəsb etdiyi torpaqların ekoloji vəziyyəti, qaçqın və məcburi köçkün uşaqlarının təhsilində yaranmış problemlər, məcburi köçkünlərin sosial durumu və bu kimi onlarca ağrılı fakt bütün Avropaya və dünyaya regiondakı hadisələrin mahiyyətini obyektiv və dəqiq təsəvvür etmək imkanı verirdi. Bu imkanı cənab İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin vətənpərvər fəallığı yaratmışdı.

Cənab İlham Əliyevin nümayəndə heyətimizə rəhbərlik etdiyi dövrdə AŞ PA-da Azərbaycan həqiqətlərini özündə ehtiva edən 30-a yaxın sənəd hazırlanmış və təşkilatın rəsmi sənədləri kimi yayılmışdır.[1] Azərbaycan nümayəndə heyətinin AŞ PA-da çoxşaxəli fəaliyyətinin əsas prinsiplərindən biri Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbləri barədə beynəlxalq ictimaiyyəti məlumatlandırmaqdan ibarət idi və nəticələr həmin prinsipin bütün müddəalarının həyata keçirildiyini söyləməyə əsas verir. Təşkilatın konflikt üzrə xüsusi məruzəçisinin təyin edilməsi istiqamətində aparılan gərgin mübarizənin uğurlu sonluqla yekunlaşması bu mənada, xüsusilə diqqətəlayiq hadisə kimi qiymətləndirilə bilər. Cənab İlham Əliyevin AŞ PA-dakı uğurlu fəaliyyəti təşkilatın bütün strukturlarında, komissiya və komitələrində nümayəndə heyətimizin fəal iştirakının təmin olunması ilə nəticələndi. Bütün bunlar ermənilərin beynəlxalq aləmdən təcrid olunması prosesinin həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malik idi.

Şübhəsiz ki, bütün bu qeyd olunan məqamlar Azərbaycan nümayəndə heyətinin AŞ PA-dakı fəaliyyətinin müxtəlif detallarını özündə ifadə edir. Cənab İlham Əliyevin azərbaycanlı deputatların vahid bir komanda kimi formalaşması və milli maraqlarımızı daha etibarlı şəkildə müdafiə etməsi sahəsində nümayiş etdirdiyi prinsipiallıq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasını təmin etmişdir. Məhz buna görə də o, artıq beynəlxalq siyasi müstəvidə də ciddi və qətiyyətli siyasətçi kimi qiymətləndirilir. Şübhəsiz ki, prezident İlham Əliyevin siyasətdə qazandığı uğurlar onun Azərbaycan xalqının milli maraqları uğrunda gərgin və səmərəli fəaliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir. Dünya o siyasətçini qəbul edir və perspektivinə inanır ki, o, ilk növbədə mənsub olduğu xalqın daimi mənafelərinin müdafiəçisi kimi özünü tanıtmağa müvəffəq olsun. Cənab İlham Əliyev Azərbaycanda yalnız milli maraqlarımızın etibarlı müdafiəçisi yox, həm də fəaliyyətini müasir dünyanın mürəkkəb reallıqlarına uyğunlaşdırmağı bacaran lider kimi qəbul edilir. Onun siyasi uğurlarının əsas səbəblərindən biri də elə bu amillə bağlıdır.

**Avropa Şurası Parlament Assambleyası**
**Dağlıq Qarabağdakı münaqişəyə dair 1047 (1994) saylı qətnamə**
**(Strasburq, 10 noyabr 1994-cü il)**

1. Assambleya məmnunluqla qeyd edir ki, 1994-cü il mayın 12-də qüvvəyə minmiş atəşkəsə nisbətən yaxşı riayət olunmuşdur və ümid edir ki, bunun ardınca müharibə edən tərəflər arasında tezliklə sülh müqaviləsi imzalanacaq;

2. 1988-ci ildə başlanmış bu münaqişə 20 min nəfərin ölümünə və 1 milyondan çox adamın qaçqın olmasına gətirib çıxarmışdır;

3. Assambleyada ATƏM-in Minsk qrupunun, Rusiya Federasiyası hökumətinin, BMT Təhlükəsizlik Şurasının, JVIDB Parlamentlərarası Assambleyası özünün iştirakçı olmayan Avropa dövlətləri ilə münasibətlər üzrə Komitəsinin müharibə edən tərəfləri sülh müqaviləsi imzalamağa inandırmaq cəhdlərini məmnunluqla qeyd edir;

4. O, Ermənistan və Azərbaycan müdafiə nazirlərinin və Dağlıq Qarabağ ordu komandanının atəşkəsi gözləmək öhdəliyini və siyasi sazişin imzalanmasını sürətləndirmək barədə istəyi bəyan etdikləri 26 iyun 1994-cü ildə imzalanmış sazişi alqışlayır və bütün müharibə edən tərəfləri 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsin mövcudluğuna təhlükə törədəcək hər hansı hərbi hərəkətlərdən çəkindirməyə təkidlə çağırır;

5. O, sülb müqaviləsinin bərqərar olmasının tezləşdirilməsində ən yaxşı vasitələrlə, xüsusən maraqlı tərəflərin parlament nümayəndələri arasında dialoqu həvəsləndirməklə kömək etməyə hazır olduğunu bəyan edir;

6. Yekun olaraq o, müharibə edən tərəfləri 1251 saylı tövsiyədə nəzərdə tutulduğu kimi, birinci dərəcəli vacib iş kimi qaçqınların doğma torpaqlarına qayıtmaları üçün şərait yaratmağa və azlıqların hüquqlarına hörmət etməyə, Azərbaycanı və Türkiyəni Ermənistana qarşı kommunikasiyaların blokadasına dərhal son qoymağa çağırır.

**Avropa Şurası Parlament Assambleyası**
**Zaqafqaziya münaqişələrinə dair 1119 (1997) saylı qətnamə**
**(Strasburq, 22 aprel 1997-ci il)**

1. Assambleya hesab edir ki. Zaqafqaziya münaqişələri zonasında, xüsusən Abxaziyada və Dağlıq Qarabağda 1994-cü ilin mayından atəşkəs rejiminin saxlanması gərginlik zonalarında siyasi sabitliyin təmin olunmasına kömək göstərməlidir;

2. Üzv olmayan Avropa ölkələri ilə əlaqələr komitəsinin müxtəlif dinləmələrini keçirən assambleya ümid edir ki, bu münaqişələrin siyasi yolla nizama salınması işində mühüm irəliləyiş əldə olunacaqdır;

3. Xüsusi qonaq statusu olan üç Zaqafqaziya dövləti - Ermənistan, Azərbaycan və Gürcüstan Avropa Şurasının tamhüquqlu üzvü olmaq barəsində ərizə vermişlər. Assambleya hesab edir ki, bütün tərəflərin bu münaqişələri nizama salmağa yönəldilmiş əsl siyasi iradəsi qəbul proseduralarını sürətləndirməyə kömək göstərəcəkdir;

4. Assambleya birbaşa və ya dolayısı ilə bu münaqişələrə cəlb olunmuş bütün tərəfləri yerlərdə həyata keçirilən vasitəçilik fəaliyyətində, xüsusən Birləşmiş Millətlər Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin və ATƏT-in vasitəçilik fəaliyyətində əməli iştirak etməyə çağırır;

5. Bu iki münaqişə öz təbiətinə görə müxtəlif olsa da, assambleya qeyd edir ki, onların siyasi yolla nizama salınması 1975-ci il Helsinki Yekun Aktının və 1990-cı il Paris Xartiyasının aşağıdakı prinsiplərinə uyğun olaraq münaqişələrə cəlb olunmuş bütün tərəflərlə razılaşdırılmalıdır:

I. sərhədlərin pozulmazlığı;

II. regionun bütün xalqları üçün əsasən çoxmillətli sülhyaratma qüvvələri tərəfindən dəstəklənən təminatlı təhlükəsizlik;

III. cəlb olunmuş bütün tərəflərin Abxaziya və Dağlıq Qarabağa geniş muxtariyyət statusu verilməsi barədə razılaşması;

IV. qaçqınların və köçkünlərin geri qayıtmaq hüququ və insan hüquqlarına hörmət əsasında onların yenidən inteqrasiyası.

6. Assambleya hesab edir ki, Avropa Şurası Zaqafqaziya dövlətlərində hüquqi dövlətin və plüralist demokratiyanın bərqərar olmasına, insan hüquqlarının müdafiəsinə və sosialyönümlü bazar iqtisadiyyatının yaradılmasına həqiqi kömək göstərməlidir;

**A. Abxaziya barəsində:**

7. Assambleya Tbilisi ilə Suxuminin mövqelərinin yaxınlaşmasına dair müəyyən əlamətlərin olduğunu razılıqla qeyd edərək ümidvar olduğunu bildirir ki, tezliklə münaqişə yuxarıda göstərilən prinsiplər əsasında siyasi yolla nizama salına biləcəkdir;

8. Assambleya ümidvar olduğunu bildirir ki, cəlb olunmuş tərəflərin, habelə Birləşmiş Millətlər Təşkilalatının, ATƏT-in və Rusiya Federasiyasının cəhdləri ən yaxın zamanda həm Tbilisi, həm də Suxumi üçün məqbul olan elə bir təsisat balansının yaranmasına gətirib çıxaracaqdır ki, qaçqınlar əlverişli təhlükəsizlik şəraitində geri qayıda biləcək, regionun əhalisi dinc və firavan həyat şəraitini bərpa edə biləcəkdir;

**B. Dağlıq Qarabağ barəsində:**

9. Assambleya Ermənistanın və Azərbaycanın parlament üzvləri arasında davam edən dialoqu, xüsusən üzv olmayan Avropa ölkələri ilə əlaqələr komitəsinin təşkil etdiyi, 1996-cı 11 yanvarın 26-da Strasburqda keçirilmiş Zaqafqaziyada münaqişələrə dair seminarı alqışlayır. Bununla əlaqədar Assambleya ATƏT-in Dağlıq Qarabağ üzrə Minsk qrupunun yenidən fəaliyyətə başlamasını alqışlayır və onun münaqişəni tezliklə nizama salmağa yönəldilmiş danışıqları davam etdirməsini dəstəkləyir;

10. Assambleya münaqişənin siyasi yolla nizama salınmasına nail olmaq, bunun sayəsində işğal olunmuş ərazilərin azad edilməsinə, qaçqınların və köçkünlərin geri qayıtmasına, Dağlıq Qarabağ üçün qənaətbəxş alternativ statusa, habelə təhlükəsizliyə təminat yaratmaq məqsədilə münaqişənin bütün tərəflərini birbaşa danışıqlar aparmağa çağırır;

11. Nəhayət, Assambleya arzu etdiyini bildirir ki, gələcəkdə üç Zaqafqaziya dövləti - Ermənistan, Azərbaycan və Gürcüstan Zaqafqaziya dövlətləri birliyi və birgə parlament assambleyası yaradılmasının mümkünlüyü məsələsinə baxacaqlar.

**Ermənistanda və Dağlıq Qarabağda saxlanılan**
**hərbi əsirlər və girovlar haqqında**
**(Strasburq, 25 aprel 2001-ci il)**

1. 1988-ci ildə başlanmış və sonralar Ermənistanın Azərbaycana qarşı hərbi müdaxiləsinə çevrilmiş Dağlıq Qarabağ münaqişəsi respublikamızın ərazisinin təxminən 20 faizinin işğalı ilə nəticələnmişdir.

2. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin 2001-ci il 10 aprel tarixli məlumatına əsasən, işğal nəticəsində 4959 nəfər itkin düşmüş, onlardan 1092 nəfəri 1992-2001-ci illər ərzində azad edilmişdir. Həmin məlumat-da göstərildiyi kimi, onlardan 176 nəfəri xəstədir.

3. İndi Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazisində 783 nəfər əsir saxlanılır, onlardan 18-i uşaq, 43-ü qadın, 56 nəfəri qocadır. Ancaq Ermənistan tərəfi bu faktı inkar edir.

4. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin verdiyi məlumata görə bu təşkilat altı aydan artıqdır ki, həmin əsirlərlə görüşə bilmir.

5. Azərbaycan və Ermənistanın Avropa Şurasının tamhüquqlu üzvü olmasından artıq üç ay keçir. Belə bir nüfuzlu təşkilatın üzvü olan ölkənin ərazisində hətta adi insan hüquqları qorunmayan bu qədər əsirin olması qəbuledilməzdir.

6. Azad edilmiş əsirlərin dediyinə görə, əsirlikdə olanlar qul kimi işlədilir, daim təhqir olunur və işgəncələrə məruz qalırlar. Onlar normal qidalanmır, lazımi tibbi yardım almırlar.

7. Assambleya Nazirlər Komitəsinə müraciət edərək Avropa Şurasının üzvü olan bir dövlətin - Ermənistanın işğal etdiyi Azərbaycan ərazisində insan hüquqlarına dair Avropa Konvensiyasının həyata keçirilməsini bütün imkanlardan istifadə etməklə təmin etməyə çağırır.

8. Assambleya Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsinə müraciət edərək problemin tezliklə həll olunması ilə bağlı xüsusi məruzə hazırlamasını xahiş edir.

**Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinin tanınması haqqında yazılı bəyannamə (Strasburq, 26 aprel 2001-ci il)**

Azərbaycan torpaqlarının Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə parçalanmasından başlanan soyqırımı Azərbaycan tarixinin tərkib hissəsidir.

Ermənilər "böyük Ermənistan" yaratmaq iddiası ilə 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirdilər.

1918-ci ilin martında ermənilər Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və başqa ərazilərdə azərbaycanlılara qarşı qətlim törətdilər.

Sovet rejiminin köməyi ilə Ermənistan 1920-ci ildə Zəngəzuru və başqa Azərbaycan torpaqlarını öz ərazisinə birləşdirdi.

Kommunist rejimi 1948-1953-cü illərdə azərbaycanlıları onların Ermənistandakı tarixi torpaqlarından Azərbaycana deportasiya etdi.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsi başlanandan sonra yüz minlərlə azərbaycanlı yenidən öz tarixi torpaqlarından deportasiya edildi.

1992-ci il fevral ayının 26-da Xocalı əhalisi ermənilər tərəfindən bütünlüklə məhv edildi, şəhər xarabazara çevrildi.

Dağlıq Qarabağdakı erməni separatizmi və Azərbaycan torpaqlarının 20 faizinin işğalı nəticəsində minlərlə insan məhv oldu, bir milyondan artıq əhali evindən-eşiyindən didərgin düşdü.

Biz, Parlament Assambleyasının bütün digər üzvlərinə müraciət edərək XIX əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırımını tanımaq üçün zəruri addımlar atmağı xahiş edirik.

**Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır**
**AŞ PA deputatlarının Nazirlər Komitəsinə müraciəti**
**(Strasburq, 26 iyun 2001-ci il)**

Avropa Şurasının Nazirlər Komitəsi 2001-ci il mayın 10-11-də keçirdiyi 108-ci sessiyasında Balkanlarda və Qafqaz regionunda vəziyyəti müzakirə etmişdir. Ermənistanın Xarici İşlər naziri Vardan Oskanyan sessiyada bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsi həll edilməyincə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq niyyətində deyil və tanımayacaqdır.

- Azərbaycanın və Ermənistanın Avropa Şurasının tamhüquqlu üzvü olduğunu;
- Azərbaycan Respublikasının ərazi bütövlüyünün BMT, ATƏT, Avropa Şurası və bütün dünya dövlətləri tərəfindən tanındığını;
- Avropa Şurasının üzvü olan bir dövlətin - Ermənistanın Avropa Şurasının üzvü olan başqa bir dövlətin - Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmədiyini;
- Azərbaycan torpaqlarının 20 faizini Ermənistanın işğal etdiyini və bunun nəticəsində insan hüquqlarını kütləvi surətdə pozduğunu nəzərə alaraq Avropa Şurasının Nazirlər Komitəsindən xahiş edilir ki;
- Ermənistan Respublikasının beynəlxalq qanunlarının əsas prinsiplərindən biri olan dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipinə hörmət etməyə;
- Ermənistan hərbi qüvvələrini Azərbaycan ərazisindən dərhal çıxarmağa çağırsın.

**Azərbaycanın mədəni irsinin zəbt edilməsi və dağıdılması**
**(Strasburq, 27 iyun 2001-ci il)**

Azərbaycan Respublikasına qarşı erməni təcavüzünün faciəvi nəticələrindən biri də odur ki, Azərbaycan torpaqlarının 20 faizini işğal etməkdən əlavə, ermənilər ölkənin zəbt olunmuş bölgələrində Azərbaycanın milli-mənəvi irsini məhv edirlər. Bir çox beynəlxalq təşkilatların müraciətinə baxmayaraq, Ermənistan işğal olunmuş bölgələrdə Azərbaycanın mədəni sərvətlərinin təhlükəsizliyi üçün heç bir konstruktiv addım atmamışdır.

İşğal olunmuş ərazidə 500 tarixi-memarlıq və 100-dən çox memarlıq abidəsi, 22 muzey, 4 şəkil qalereyası, 927 kitabxana, 85 musiqi məktəbi, 4 dövlət teatrı qalmışdır.

İşğal nəticəsində tunc dövrünə aid nadir abidələr - 100-dən çox Xocalı kurqanı yerlə yeksan edilmişdir.

Parlament Assambleyası belə xəbəri təşviş hissi ilə qarşılamışdır ki, insan sivilizasiyasının qədim məskənlərindən biri olan Azıx mağarası silah anbarı kimi istifadə olunur.

Azərbaycanın ədəbiyyat və incəsənət nümunələrinin ermənilər tərəfindən təhqirə məruz qalması Azərbaycan xalqını ciddi narahat edir.

Uzun əsrlər boyu yaradılmış mədəni irsin yalnız bir xalqa və ya ölkəyə mənsub olmadığını, dünya mədəniyyətinin bir parçası olduğunu nəzərə alaraq Parlament Assambleyası Avropa Şurasının Nazirlər Komitəsinə müraciət edir, Azərbaycanın mədəni irsinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almağa çağırır.

**Azərbaycan Respublikasında ekoloji vəziyyət**
**(Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər,**
**Ağdam, Füzuli, Cəbrayıl)**
**(Strasburq, 27 iyun 2001-ci il)**

Müasir dünyada ekoloji problemlərin ümumbəşəri əhəmiyyətini nəzərə alaraq Avropa Şurası Azərbaycan Respublikasının ərazisində (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) yaranmış ekoloji vəziyyətlə əlaqədar dərin təşviş hissi keçirir.

Azərbaycanın həmin ərazisində iki milli qoruq (Qarabağ və Bəsitçay) və dörd müvəqqəti qoruq (Laçın, Qubadlı, Arazətrafı, Cəbrayıl) var. Nadir təbii relyefi, zəngin fauna və florası ilə tanınan həmin milli qoruqlar nəzarətdən kənarda qaldığına görə aramsız olaraq ermənilər tərəfindən qarət edilir.

Adı çəkilən ərazilərdə meşələrin ümumi sahəsi 264.000 hektardır. Nadir ağac və heyvan növləri hər gün məhv edilir. Nəticədə təbii növlər arasında bioloji əlaqələr pozulur, bu isə ekoloji böhrana səbəb olur.

Azərbaycanın ən mühüm su arteriyalarından biri olan Araz çayında suyun kimyəvi analizi göstərir ki, suyun çirklənməsi normadan bir neçə dəfə yuxarıdır. Araz çayının əsas qollarının (Oxçuçay, Razdan, Arpaçay) Ermənistan ərazisindən keçdiyini, habelə Ermənistanın "Sərhədlərarası su arteriyalarından və beynəlxalq sulardan istifadə edilməsi və onların mühafizəsi haqqında Konvensiyanı (Helsinki, 2000-ci il) imzalamadığını nəzərə alaraq Parlament Assambleyası vəziyyətlə əlaqədar böyük narahatlıq hissi keçirir.

Qafqaz regionunda seysmoloji aktivliyin (Spitak, 1988, Bakı, 2000) yüksək olduğunu, Ermənistan Respublikasındakı atom stansiyasının təkcə region üçün deyil, bütün Şərqi Avropa və Yaxın Şərq ölkələri üçün potensial təhlükə olduğunu, Azərbaycan Respublikasının 2001-ci ildə "Zəhərli tullantıların sərhədlərarası daşınmasına nəzarət haqqında bazel Konvensiyası"nı imzaladığını, həmçinin adı çəkilən ərazilərin tamamilə nəzarətsiz qaldığını nəzərə alaraq Parlament Assambleyası belə bir narahatlıq hissi keçirir ki, Azərbaycanın həmin ərazilərində Ermənistandakı atom stansiyasının nüvə tullantıları basdırıla bilər.

Yuxarıda deyilənləri nəzərə alaraq Parlament Assambleyası Nazirlər Komitəsinə müraciət edir, Avropanın nadir torpaq sahələrindən olan həmin işğal zonasında mümkün ekoloji fəaliyyətin qarşısını almaq üçün təsirli tədbirlər görməyə çağırır.

**AŞ PA-nın Nazirlər Komitəsinin qərarı**
**(Strasburq, 24 sentyabr 2001-ci il)**

Nümayəndələr xanım Hacıyevanın 396 nömrəli sualına aşağıdakı cavabı qəbul edirlər:

1. Nazirlər Komitəsi xanım Hacıyevanın Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınması haqqında 396 nömrəli yazılı sualı ilə maraqla tanış oldu.

2. Xanım Hacıyeva Nazirlər Komitəsinin 2001-ci ilin 10-11 may tarixində keçirilmiş 108-ci sessiyasına istinad edir. Bu görüş zamanı Nazirlər Komitəsi həqiqətən Balkanlardakı və Qafqazdakı vəziyyəti nəzərdən keçirmişdir. Bütün üzv Ölkələrin təmsil olunduğu bu sessiyanın sonunda Nazirlər Komitəsi rəsmi məlumat qəbul etmişdir ki, onun 2-ci paraqrafı aşağıdakıları bəyan edir:

3. Nazirlər bütün Avropada beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə, eləcə də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, ATƏM-in Helsinki Yekun Aktında və digər müvafiq mətnlərdə əks olunmuş beynəlxalq hüquq prinsiplərinə hörmət edilməsinə dəstəklərini bir daha təsdiq edirlər.

4. Bu cümləni qəbul edərkən: bir nümayəndə heyəti bildirmişdir ki, o bu cümləni, istinad olunmuş beynəlxalq hüququn - açıq şəkildə qeyd olunmuş və ya yox - prinsipləri arasında iyerarxiyanın mövcud olmamasını nəzərə almaqla qəbul edir. Həmin nümayəndə heyəti bununla bağlı bəyanat vermişdir ki, o da iclasın protokolunda öz əksini tapmışdır.

5. Yuxarıda göstərilənlərdən belə nəticələnir ki, Nazirlər Komitəsi Avropa Şurasının bütün üzvlərinin beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərinə, suverenliyinə və ərazi bütövlüyünə hörmət edil-məsinə dəstəyini, beynəlxalq hüququn digər prinsiplərinin dəyərini bərabər surətdə tanımaqla aydın şəkildə bir daha təsdiq etmişdir. Xalqların öz müqəddəratını təyin etmək hüququ və Helsinki Yekun Aktında göstərilmiş başqa prinsiplər, onlardan hər biri digərləri nəzərə alınaraq təfsir edilməklə bərabər surətdə və qeyd-şərtsiz tətbiq olunur. Beləliklə, xalqların öz müqəddəratını təyin etmək hüququna Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn normalarına, o cümlədən dövlətlərin ərazi bütövlüyünə dair normalara uyğun olaraq hörmət olunmalıdır. Nəticə etibarilə bu hüquq yalnız sülh danışıqları əsasında həyata keçirilə bilər. Torpaq əldə etmək məqsədilə gücdən istifadə qəbuledilməzdir və ondan irəli gələn heç bir nəticə qanuni tanına bilməz.

6. Nazirlər Komitəsi 108-ci sessiyanın yuxarıda qeyd olunmuş rəsmi məlumatının 12-ci paraqrafına istinad edir. Əlavə olaraq özünün 761-ci iclası zamanı (18 iyul 2001-ci il, 2.6-cı məsələ) GT. SUIVI. AGO-nun məruzəsinə baxılması kontekstində o, yenidən "hər iki ölkəni Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində fəal addımlar atmağa çağırmışdır". Bununla bağlı Nazirlər Komitəsi Qrupun Parlament Assambleyasına göndərilmiş məruzəsinə istinad edir.

7. Nazirlər Komitəsi iki aidiyyəti üzv dövləti yuxarıda göstərilən 5-ci paraqrafda qeyd edilən prinsiplərə uyğun olaraq kompromis tapmağa və hər iki dövlətin Avropa Şurasına üzv qəbul edilən zaman üzərlərinə götürdükləri öhdəliklərin əksinə olaraq hərbi həllin lehinə və düşmənçiliyi və kini gücləndirəcək bəyanatlar verməkdən çəkinməyə çağırır. Nazirlər Komitəsi həqiqətən əmindir ki, bu münaqişənin sülh yolu ilə həlli fundamental məsələdir və çox təcilidir, belə ki, iki ölkənin bu ümumi öhdəliyinin həyata keçirilməsi onların bütün digər öhdəliklərinin yerinə yetirilməsinə müsbət təsir göstərə bilər. Yoxsulluq və kin demokratiya və insan hüquqlarına hörmət üçün əlverişli əsas deyildir. Sülh yalnız regionun sabitliyi, onun iqtisadi inkişafı üçün deyil, həm də bu ölkələrdə demokratiyanın bərqərar olması və möhkəmlənməsi üçün vacibdir.

**Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində**
**Ermənistanın himayədarlıq etdiyi terrorçu təşkilatlar şəbəkəsi**
**(Strasburq, 24 iyun 2002-ci il)**

Azərbaycan Respublikasının işğal olunmuş və beynəlxalq qanunların işləmədiyi 20 faiz ərazisi faktiki olaraq, Avropa məkanından təcrid edilmiş və dünya birliyi üçün ciddi təhlükə zonasına çevrilmişdir. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindəki terrorçu təşkilatlarının maliyyə qaynağını narkobiznes, nüvə layihələri, qanunsuz silah alveri təşkil edir. ABŞ Dövlət Departamentinin 2000-ci il mart hesabatında Dağlıq Qarabağ ərazisində narkotik maddələrin qanunsuz becərilməsi və istehsalı ilə bağlı müddəaların əksini tapması, 2002-ci ilin mayında ABŞ Dövlət Departamentinin qanunsuz nüvə layihələrini gerçəkləşdirən erməni şirkətlərinə qarşı sanksiyaların tətbiqi haqda qərar qəbul etməsi qanundankənar bölgədə bu cinayətkar prosesləri Ermənistan dövlətinin himayəsi altında idarə edən terrorçu şəbəkələrə xüsusi diqqət ayırmağı zəruriləşdirir.

İşğal ərazilərinin nəzarətsizliyi ermənilərin ASALA və "Haydud" terrorçu təşkilatlarından savayı, onlarla əməkdaşlıq edən bir sıra xarici ölkələrin terrorçu təşkilatların da burada təlim-məşq düşərgələri salması və maneəsiz fəaliyyəti üçün münasib imkan yaratmışdır.

İşğal altındakı Kəlbəcərdə Livanın "Qayıdan qəhrəmanlar təşkilatı" (rəhbəri Beyrut ermənisi O.Ter-Qriqoryan), Laçında PKK kürd separatçı təşkilatının xüsusi dəstəsi (C.Şamoyan), "Vartan cəngavərləri" terror təşkilatı (rəhbəri A.Babacanyan), Zəngilanda Livanın "Həmas" qrupunun "Ziyəddin əl-Qissan" hərbi qanadı, Xankəndində Yunanıstanın "Milli dirçəliş təşkilatı" terrorçu qrupu (rəhbəri E.Qalustyan) və s. fəaliyyətdədir.

1970-1980-ci illərdə Fransada terror aktları törətmiş məşhur beynəlxalq terrorçular - ABŞ vətəndaşı Monte Melkonyana, İran vətəndaşı Vazgen Sisliyana, Suriya vətəndaşı Varujan Qarbijyana və başqa terrorçulara Ermənistan Prezidentinin fərmanı ilə rəsmən milli qəhrəman, Qarabağ müharibəsinin qəhrəmanı adlarının verilməsi, onlara dövlət qayğısı göstərilməsi Ermənistan Respublikasının terrorizmə rəsmi dövlət dəstəyi verməsinə əyani sübutdur. Assambleya Azərbaycanın işğal edilmiş ərazilərindəki "qanundankənar" zonanın bütün Avropa üçün təhlükə mənbəyi olduğunu qeyd edərək üzv dövlətləri problemin həlli üçün səylərini artırmağa çağırır.

Assambleya Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki və ondan kənardakı 7 başqa işğal rayonundakı mövcud vəziyyəti araşdırmaq üçün monitorinq qrupunun yaradılması zəruriliyini təkidlə vurğulayır.

Assambleya Nazirlər Komitəsinə tövsiyə edir ki, beynəlxalq nəzarətin olmamasından istifadə edərək işğal etdiyi əraziləri terrorçu qrup və şəbəkələrin yerləşdirilməsi, narkotiklərin yetişdirilməsi və tranziti, məxfi nüvə layihələrinin icrası üçün istifadə edən Ermənistanın beynəlxalq hüquq normalarına və Avropa Şurası Nizamnaməsinə zidd olan fəaliyyətlərini təxirə salmadan dayandırmasından ötrü lazımi tədbirlər görsün.

**Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı**
**İlham Əliyevin Azərbaycan dövlət televiziyasına müsahibəsi**
**(24 sentyabr 2001-ci il)**

Avropa Şurası çox düzgün, ədalətli qərar qəbul edibdir. O da ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaq şərti ilə həll olunmalıdır. Bu, Azərbaycan üçün çox qiymətli bir sənəddir və hesab edirəm ki, gələcək danışıqlarımızın uğurla aparılması üçün çox gözəl bir zəmin yaradır.

Bu sənəd Avropa Şurası Nazirlər Komitəsinin iclasında yekdilliklə qəbul olunubdur. Əlbəttə, burada müxtəlif fikirlər var idi. Bəzi tərəflər, xüsusilə Ermənistan tərəfi buna etirazını bildirməyə çalışırdı. Amma bizim işimizin nəticəsində belə bir sənəd qəbul olundu. Sənəddə eyni zamanda millətin, xalqın öz müqəddəratını təyinetmə prinsipi də öz əksini tapıb. Ancaq, yalnız və yalnız ərazi bütövlüyü çərçivəsində, yəni Azərbaycanın dəfələrlə bəyan etdiyi prinsiplər öz əksini tapıbdır və Avropa Şurası tərəfindən qəbul olunubdur.

Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir, böyük uğurdur və bayaq dediyim kimi, gələcək fəaliyyətimizdə bizə böyük kömək edəcəkdir.

Əlbəttə ki, Amerika Birləşmiş Ştatlarında baş vermiş terror hadisəsi bizim hamımızı sarsıtdı. Bu hamımız üçün gözlənilməz oldu və Azərbaycan hökuməti terror aktını qətiyyətlə pisləyibdir. Amerika hökumətinə öz dəstəyini göstəribdir. Biz də, Azərbaycan nümayəndə heyəti burada bu barədə öz fikirlərimizi bildirdik, bir daha onu göstərdik ki, Azərbaycan bütün mütərəqqi ölkələrlə birlikdə terror əleyhinə mübarizə aparmağa hazırdır.

Biz terrordan zərər çəkmiş bir dövlətik. Ermənistanın işğalçı qüvvələri 10 ildən çoxdur ki, Azərbaycana qarşı terror siyasəti aparırlar. Məhz bu terror siyasəti nəticəsində bizim torpaqlarımız işğal altındadır, bir milyondan çox qaçqınımız var və Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Ona görə də zərər çəkmiş bir ölkə kimi, Azərbaycan bu barədə öz fikrini bildirir. Mən bir daba bildirmək istəyirəm ki, biz əlimizdən gələni edəcəyik ki, bu məsələlərlə bağlı öz töhfəmizi verək, öz fəaliyyətimizi göstərək.

Mən demək istəyirəm ki, antiterror əməliyyatı təkcə Amerikada törədilmiş terrorun təşkilatçılarına qarşı olmamalıdır. Eyni zamanda dünyadakı bütün terrorist qruplaşmalar, terrorçu təşkilatlara qarşı ciddi tədbirlər görülməlidir.

Mən bir məsələni də demək istəyirəm. Bu gün bizə bir sənəd daxil oldu ki, qondarma «Dağlıq Qarabağ Respublikasının» spikeri Avropa Şurasına məktub göndərmişdir. O, məktubda demişdir ki, Azərbaycan nümayəndə heyəti Avropa Şurasında «DQR» və Ermənistan haqqında yalan informasiyalar yayır və onları biabır edir. Mən buna münasibətimi bildirmək istəyirəm.

Birincisi, biz onları biabır etmirik. Onlar özləri özlərini biabır edirlər. Biz sadəcə olaraq, onları ifşa edirik. Deyə bilərəm ki, bundan sonra da Avropa Şurasının iclaslarında biz Azərbaycanın mövqeyini bildirəcəyik, işğalçı dövləti ifşa edəcəyik və bizim fəaliyyətimiz həmişə belə olacaqdır.

Biz bu kürsüdən çox səmərəli istifadə edirik. Azərbaycan haqqında və ümumiyyətlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatları bütün dünya ictimaiyyətinə çatdırırıq və bundan sonra da çatdıracağıq. Əminəm ki, bizim buradakı fəaliyyətimiz öz bəhrələrini verəcəkdir.

Biz düzgün yoldayıq. Biz burada həm Avropa Şurasının rəhbər orqanları tərəfindən, həm də müxtəlif ölkələri təmsil edən deputatlar tərəfindən çox böyük dəstək hiss edirik. Bizim mövqeyimiz dəstəklənir və əminəm ki, bundan sonra da dəstəklənəcəkdir.

**AzərTAC,**
**«Xalq qəzeti»**
**Strasburq,**
**24 sentyabr 2001-ci il**

## Avropa Şurası Parlament Assambleyasının sessiyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin çıxışı (Strasburq, 24 aprel 2001-ci il)

Mütəşəkkil cinayətkarlığın artmasının mühüm səbəblərindən biri müvafiq dövlət strukturlarının bu sahəyə az nəzarət etməsi və ya bəzən tamamilə nəzarət etməmişdir.

Azərbaycan bu məsələdən xüsusilə narahatdır. Çünki Avropada mütəşəkkil cinayətkarlığın mərkəzlərindən biri məhz bizim ərazidədir. «Dağlıq Qarabağ Respublikası» deyilən ərazidə nəinki Azərbaycanın hakimiyyət orqanlarının, bu cinayətkarlıqla mübarizəyə məsul olan beynəlxalq təsisatların da heç bir nəzarəti yoxdur.

Azərbaycan ərazisinin 20 faizinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunması ilə nəinki bir milyon azərbaycanlı qaçqın evsiz-eşiksiz qalıb, çoxsaylı şəhərlərimiz, kəndlərimiz, mədəniyyət abidələrimiz, əcdadlarımızın qəbirləri büsbütün dağıdılıb, bir sözlə, erməni işğalçılarının zəbt etdikləri ərazidə bütün infrastruktur məhv edilib, həm də ermənilərin işğal etdikləri ərazidə mütəşəkkil cinayətkarlığın inkişafı üçün çox əlverişli şərait yaranmışdır. Mən sizin diqqətinizi bizim təhlükəli vəziyyətimizi göstərən bir neçə fakta yönəltmək istərdim.

«Dağlıq Qarabağ Respublikası» deyilən ərazidən narkotik bitkilərin yetişdirilməsi və daşınması üçün istifadə edilir. Bu fakt ABŞ Dövlət Departamentinin narkotik maddələr üzərində beynəlxalq nəzarət strategiyasına dair 2000-ci il mart tarixli hesabatında öz əksini tapmışdır. Narkotiklərlə məşğul olan işbazlar və tiryək alverçiləri orada özlərini təhlükəsiz və çox rahat hiss edirlər. Onları «Dağlıq Qarabağ Respublikası»nın bədnam rəhbərləri müdafiə edir. Həmin rəhbərlər narkotiklərin satışından gələn pulları Azərbaycanın işğal olunmuş ərazisini əldə saxlamaq və muzdlulara haqq ödəmək üçün istifadə edirlər.

Yaxşı məlumdur ki, Rusiyanın keçmiş rəhbərləri özlərinin müvafiq strukturlarına Ermənistana qanunsuz yolla bir milyard dollarlıq silah ötürməsinə icazə vermişdilər.

Həmin silahların çox hissəsi Dağlıq Qarabağda və Azərbaycanın işğal edilmiş digər ərazilərində yerləşdirilmişdir. Mən sual edirəm: Ermənistan və Dağlıq Qarabağ bu silahları almaq üçün bu qədər pulu haradan tapdı? Bu regiondakı vəziyyəti bilən hər kəsə aydındır ki, Ermənistanda iqtisadi vəziyyət çox pisdir. Ermənistan əsas etibarilə xarici yardımlar hesabına yaşayır. Daimi iqtisadi tənəzzül ucbatından yüz minlərlə adam Ermənistanı tərk etmişdir.

Cavab aydındır. Ya onlar həmin silahları pulsuz alıblar, - buna güman azdır, - ya da narkotiklərin satışından əldə olunan pullara alırlar.

Dağlıq Qarabağda mövcud olan, qanunsuz iqtisadi fəaliyyət göstərən bu qondarma «respublika» «çirkli pulların yuyulması» əməliyyatları sahəsində məşhurlaşmışdır.

Ermənilər Dağlıq Qarabağın ərazisində silahlı birləşmələrə təlim keçirlər, bu birləşmələr terrorizmə qarşı mübarizə üzrə beynəlxalq konvensiyaların nəzarətindən tamamilə kənardadır.

Biz bütün Avropa strukturlarından xahiş edirik ki, erməni təcavüzkarlarının, işğalçılarının torpaqlarımızdan çıxması üçün, bir milyon qaçqının insanı hüquqlarını pozmağa və torpaqlarımızdan öz cinayətkar əməllərindən ötrü istifadə etməyə son qoymaları üçün ciddi əməli tədbirlər görsünlər.

Təşəkkür edirəm.

**Avropa Şurası Parlament Assambleyasında**
**Azərbaycan Milli Məclisi nümayəndə heyətinin başçısı**
**İlham Əliyevin Strasburqdan respublika televiziyasına birbaşa müsahibəsi**
**(25 aprel 2001-ci il)**

***- Artıq bir neçə gündür ki, xalqımız Sizin başçılıq etdiyiniz nümayəndə heyətinin səfərini diqqətlə izləyir. Parlament nümayəndə heyətinin uğurlu fəaliyyəti, Azərbaycanın mənafeyini ləyaqətlə təmsil etməsi qəlbimizi iftixarla döyündürür. Siz Avropa Şurası Parlament Assambleyası sessiyasının bugünkü iclasının ikinci hissəsində çıxış etmiş, taleyüklü problemlər haqqında ətraflı söhbət açmırsınız. Çıxışınızda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi mühüm yer tutur. İstərdik ki, çıxışınızın əsas məzmunu və eləcə də qaldırılan digər məsələlər barədə tamaşaçılarımıza ətraflı məlumat verəsiniz.***

- Bu gün mən Parlament Assambleyasının sessiyasında çıxış etmişəm. Bugünkü mövzu Avropada mütəşəkkil cinayətkarlığa qarşı mübarizə, transmilli və iqtisadi cinayətkarlıqla mübarizə məsələsini əhatə edirdi. Çıxışımda qeyd etdim ki, Azərbaycanın torpaqlarını Ermənistanın zəbt etməsi nəticəsində Dağlıq Qarabağda və onun ətrafında qeyri-qanuni əməliyyatlar keçirilir. Xüsusilə narkotik bitkilərin yetişdirilməsi və onların nəqli, habelə qeyri-qanuni silahlı birləşmələrin hazırlanması və digər məsələləri vurğuladım. Bildirdim ki, Avropa Şurası, o cümlədən Avropanın bütün müvafiq qurumları Ermənistana güclü ,təsir göstərməlidir ki, o, işğal olunmuş torpaqlardan çəkilsin, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun və bir milyon qaçqın öz doğma yurdlarına qayıtsın. Əsas məsələlər bundan ibarət idi.

***- İlham müəllim, bizdə olan məlumata görə, Avropa Şurasının komitələrindən biri yaxın vaxtlarda İstanbulda "Qafqazda sülh, münaqişədən sabitliyə doğru" mövzusunda seminar keçirməyi təklif edibdir. Bu seminarda Azərbaycan və Ermənistandan əlavə, Dağlıq Qarabağ, eləcə də Abxaziya nümayəndələrinin də iştirakı təklif olunubdur. Siz buna qəti etirazınızı bildirmirsiniz. Bu barədə nə deyə bilərdiniz?***

- Bəli, bu barədə bizə məlumat bir qədər əvvəl daxil olmuşdur. Biz dərhal öz tədbirlərimizi görməyə başladıq. Bu seminarın keçirilməsində fəal rol oynayan şəxslərə etiraz məktubları göndərdik. Çox qəti şəkildə bəyan etdik ki, əgər qondarma "Dağlıq Qarabağ Respublikası"nın nümayəndələri o seminarda iştirak edəcəksə, Azərbaycan həmin seminarın işinə qatılmayacaq və rəsmi qaydada öz etirazını bildirəcəkdir. Yəni bu tədbirləri biz sessiyadan bir müddət qabaq görmüşdük. Bu məsələ burada yenə müzakirəyə çıxarılanda Azərbaycan tərəfi qəti şəkildə etirazını bildirdi. Nəticədə bu məsələ gündəlikdən tamamilə çıxarıldı. Yəni o seminar keçirilməyəcək və hesab edirəm ki, bu, Azərbaycan nümayəndə heyətinin ilk qələbəsidir.

***- Sizi bu münasibətlə təbrik edirik. Artıq bir neçə gündür ki, Azərbaycanın parlament nümayəndə heyəti Sizin rəhbərliyinizlə Strasburqda səfərdədir. Biz müntəzəm olaraq məlumatlar ələ edirik. Siz orada çox maraqlı, işgüzar görüşlər keçirirsiniz. Həmin görüşlər, orada müzakirə olunan məsələlər barədə məlumat verərdinizmi?***

- Doğrudan da, biz çoxlu görüşlər keçiririk. Bu görüşlər müxtəlif formatda və müxtəlif formada keçirilir. Mən bunları iki hissəyə bölə bilərəm. Birinci hissə rəsmi görüşlərdən ibarətdir.

İkinci hissə isə nümayəndə heyətlərinin digər nümayəndə heyətlərinin üzvləri ilə görüşləridir. Deyə bilərəm ki, artıq biz çox səmərəli işlər görürük. Avropa Şurası Parlament Assambleyasının keçmiş prezidenti və eyni zamanda hazırda fəxri prezidenti xanım Leni Fişerlə rəsmi şəkildə görüşüm olubdur. Eyni zamanda Rusiya nümayəndə heyətinin rəhbəri ilə görüşün və bu nümayəndə heyətinin üzvləri ilə Azərbaycan nümayəndə heyətinin görüşü keçirilmişdir. Təbii ki, türkiyəli dostlarımızla hər gün mütəmadi qaydada əlaqə saxlayırıq və müxtəlif məsələləri müzakirə edib birgə tədbirlər keçirməyə başlamışıq. Bildiyiniz kimi, bir müddət bundan qabaq AŞPA-dakı Azərbaycan nümayəndə heyəti Ankarada olarkən Türkiyənin müvafiq nümayəndə heyətinin üzvləri ilə görüşmüşdür. Orada mən təklif etmişdim ki, biz həm sessiyalarda, həm də sessiyalardan əvvəl məsləhətləşmələr keçirək və vahid bir proqramla, eyni bir mövqedən çıxış edək. Artıq biz buna nail olduq. Azərbaycan və Türkiyə nümayəndə heyətləri birgə əməli fəaliyyətə başlamışlar. Deyə bilərəm ki, burada çox gözəl əməkdaşlıq müşahidə olunur. Bizim deputatlarımız müxtəlif ölkələrdən olan deputatlarla çox gözəl işləyir, danışıqlar aparırlar. Artıq biz onlardan dəstək alırıq. Sizə bildirmək istəyirəm ki, bəzi məsələlər üzrə rəsmi sənədlər də tərtib etmişik. Onları indi sessiyada paylayacağıq. O cümlədən Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş soyqırımına dair rəsmi şəkildə sənəd hazırlamışıq. Müxtəlif ölkələrdən olan nümayəndələr də bu sənədə qol çəkdilər, yəni ki, burada görüşlər, dediyim kimi, həm rəsmi qaydada, həm də qeyri-rəsmi keçirilir. Azərbaycan nümayəndə heyətinə çox böyük hörmət bəsləndiyini görürük və bu da bizi çox sevindirir.

***- İlham müəllim, istərdik ki, Parlament Assambleyasının müzakirə etdiyi digər məsələlərə da aydınlıq gətirəsiniz, AZƏRbaycan nümayəndə heyəti bu müzakirələrdə fəal iştirak edirmi?***

- Bəli. Deyə bilərəm ki, Azərbaycan nümayəndə heyəti bütün müzakirələrdə iştirak edir. Müzakirələr həm sessiya çərçivəsində, həm də siyasi komitələr və siyasi qruplar çərçivəsində keçirilir. Nümayəndə heyətimizin

üzvləri, demək olar ki, bütün siyasi qruplarda və siyasi komitələrdə təmsil olunublar. Sessiyadan bir-iki saat qabaq o qrupların və komitələrin iclasları keçirilir. İstanbulda nəzərdə tutulan seminarın keçirilməsini əngəlləyən çıxışımız məhz siyasi qrupun iclasında olmuşdur. Biz belə qərara gəlmişik ki, hər bir məsələdə Azərbaycan nümayəndə heyəti öz mövqeyini bildirməlidir. Bizim mövqeyimiz suallar şəklində də səslənmişdir. Deputatlarımız burada məruzələrlə çıxış edən müxtəlif şəxslərə Dağlıq Qarabağ məsələsinə aid suallar vermişlər. Azərbaycan nümayəndə heyətinin üzvləri həm mütəşəkkil cinayətkarlığa qarşı mübarizə mövzusunda, həm insan hüquqlarının pozulması mövzusunda, həm də digər mövzularda çox səmərəli çıxışlar edir. Deyə bilərəm ki, burada Azərbaycan nümayəndə heyətinin mövqeyi çox güclü səslənir. Hətta nəzərə alaraq ki, bu, bizim burada ilk iştirakımızdır, həm də digər ölkələrdən olan bəzi deputatlar gəlib bizi təbrik edirlər. Bildirirlər ki, onlar üçün çox gözlənilməz olubdur ki, Azərbaycan son dərəcə mütəşəkkil şəkildə, çox güclü mövqedən çıxış edir, öz sözünü açıq şəkildə bildirir. Bilirsiniz ki, Avropa Şurasının Parlament Assambleyası dünyada ən mötəbər, ən vacib qurumlardan biridir. Burada söylənilən hər bir söz, hər bir bəyanat mütləq şəkildə rəsmi xarakter alır, yəni sənədləşdirilir. Bu nöqteyi-nəzərdən biz bu fürsətdən çox səmərəli istifadə etməliyik və edirik ki, Azərbaycanın mövqeyi bütün dünyaya çatsın. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Biz çalışırıq ki bütün dünyada, Avropanın hər bir ölkəsində bilsinlər ki zərərçəkən tərəf Azərbaycandır, Ermənistan işğalçı bir dövlətdir. Ermənistan bizim torpaqlarımızı işğal edibdir və Azərbaycan tələb edir ki, buna son qoyulsun. Əminəm ki, bizim fəaliyyətimiz də bu münaqişənin həllində öz rolunu oynayacaqdır. Ermənistan bütün dünyada, Avropada işğalçı və terrorçu bir dövlət kimi təqdim olunacaqdır. Biz bunu edirik və bundan sonra da edəcəyik.

***"İlham müəllim, Siz dediniz ki, Dağlıq Qarabağla bağlı Azərbaycan gerçəkliklərini Parlament Assambleyasında artıq öz deputat həmkarlarınızın nəzərinə çatdırmışınız. Bütün bunlardan sonra Parlament Assambleyasında təmsil olunan deputatların bu məsələyə münasibəti dəyişibmi, yoxsa müəyyən bir fikir formalaşmayıbdır?***

- Deyə bilərəm ki, münasibət dəyişir. Çünki bilirsiniz ki, ümumiyyətlə, son zamanlar dünyada ictimai rəy Azərbaycanın xeyrinə dəyişir. Azərbaycan çox müxtəlif tədbirlərdə öz mövqeyini açıq şəkildə bildirmişdir. Artıq bütün dünya açıq şəkildə bilir ki, bu münaqişənin nəticəsi nə olubdur və münaqişənin kökündə hansı məsələlər durur. Artıq Ermənistan bütün dünyaya işğalçı bir dövlət kimi təqdim olunubdur. Çox sevindirici haldır ki, bayaq sizə dediyim o rəsmi bəyanata müxtəlif ölkələrdən olan deputatlar da öz imzalarını atıblar. İspaniyadan, Litvadan, Türkiyədən, Ukraynadan, digər ölkələrdən olan deputatlar, yəni Azərbaycanın haqlı olduğunu artıq duymağa, eşitməyə, anlamağa başlayıblar. Bu, çox sevindirici haldır. Dediyim kimi, bu, Avropa Şurası Parlament Assambleyasının sessiyasında ilk iştirakımızdır və qərara gəlmişik ki, hər bir sessiyada çox fəal iştirak etməliyik, hər bir məsələ barəsində çıxış etməli və Azərbaycan haqqında həqiqətləri çatdırmalıyıq. Əgər bunu nəzərə alsaq, mən hesab edirəm ki, bizim burada fəaliyyətimiz gələcəkdə çox böyük səmərə verəcəkdir.

***- İlham müəllim, Siz keçirdiyiniz görüşlər, edilən çıxışlar haqqında geniş məlumat verdiniz. Siz bu gün Türkiyənin nüfuzlu televiziya kanallarından olan NTV-yə müsahibə vermisiniz. Həmin müsahibədə belə bir fikir söyləmisiniz ki, Parlament Assambleyasında Azərbaycan 6, Türkiyə isə 12 deputatla təmsil olunubdur. Deməli, Avropa Şurasında 18 deputat yerimiz vardır. Müsahibənin digər maraqlı məqam-larını da açıqlayardınızmı?***

- İndi mən onu təkrarlamaq istəmirəm. Çünki o müsahibə artıq verilibdir. Yəqin ki, mətbuatda həmin müsahibəni izləmək mümkün olacaqdır. Amma siz düz buyurursunuz, mən həmin fikri bu gün yox, bir müddət bundan əvvəl, Azərbaycan nümayəndə heyəti Ankarada olarkən, türk dostlarımızla görüşərkən söyləmişdim. Mən dedim ki, Avropa Şurasında Azərbaycanın 6, Türkiyənin isə 12 yeri var. Bu, o deməkdir ki, bizim 18 yerimiz vardır. Çox şadam ki, türkiyəli dostlarımız tərəfindən də bu, çox yaxşı qarşılandı. Artıq bu vahid bir komandanın birgə fəaliyyəti burada duyulur. Avropa Şurasının Parlament Assambleyasında 18 yer böyük bir rəqəmdir. Hər hansı bir təklifi sənəd şəklində tərtib etmək və onu rəsmi qaydada bütün deputatların nəzərinə çatdırmaq üçün 12 imza lazımdır. Bizim isə 18 imzamız vardır. Nəzərə alaq ki, artıq digər ölkələrin nümayəndələri ilə səmərəli iş aparır və onların da dəstəyini alırıq. Yəni biz öz tərəfimizdən, Türkiyə isə öz tərəfindən. Deməli, Azərbaycanın və Türkiyənin burada çox böyük imkanları olacaqdır. Biz çox böyük gücə malik olacağıq və oluruq. Əlbəttə ki, bu bizi çox sevindirir. Mən çox şadam ki, bizim birgə fəaliyyətimiz artıq ilkin nəticələrini verir.

***- İlham müəllim, artıq bir neçə gündür ki, parlamentin nümayəndə heyəti Strasburqdadır. Siz keçirilən görüşlər haqqında çox maraqlı məlumat verdiniz. Siz nümayəndə heyətinin rəhbərisiniz. Azərbaycan nümayəndə heyətinin fəaliyyəti, verdiyi təkliflər, nümayəndə heyəti üzvlərinin çıxışları Parlament Assambleyası tərəfindən necə dəyərləndirilir?***

- Mən hesab edirəm ki, münasibət çox müsbətdir. Bilirsiniz ki, Azərbaycan nümayəndə heyətinin tərkibində müxtəlif partiyaların üzvləri, eyni zamanda bitərəf deputatlar da təmsil olunur. Buna baxmayaraq, mən hesab

edirəm ki, biz burada vahid bir mövqedən çıxış etməliyik. Ümummilli məsələlərdə iqtidar-müxalifət olmamalıdır. Ümummilli məsələlərdə bütün siyasi qüvvələr birləşməli, bütün cəmiyyət bir olmalıdır ki, biz çətin və ağır problemləri həll edək. Burada çox səmimi şərait yaranmışdır. Biz bütün məsələləri birlikdə müzakirə edirik, planlarımızı birgə qururuq, hansı addımları atmalıyıqsa, onları birgə müzakirə edirik, vahid bir proqram üzrə hərəkət edirik. Bu nöqteyi-nəzərdən hesab edirəm ki, digər nümayəndə heyətlərindən fərqli olaraq, Azərbaycan nümayəndə heyəti çox mütəşəkkil şəkildə fəaliyyət göstərir. Təbii ki, bu, assambleyada çoxdan təmsil olunan deputatlar tərəfindən də müsbət qiymətləndirilir. Çünki biz təkcə özümüzə aid məsələlər yox, eyni zamanda Avropa üçün, bütün bəşəriyyət üçün vacib olan məsələlər barəsində də fikirlərimizi söyləyirik. Biz buraya, bu quruma daxil olarkən bildirirdilər ki, Azərbaycan parlamentinin nümayəndə heyəti Avropa Şurasının çox dəyərli üzvü olacaqdır. Artıq biz bunu görürük. Artıq bu, baş verir. Mən əminəm ki, gələcəkdə də fəaliyyətimiz nəticəsində təkcə Azərbaycanın problemlərinin yox, ümumiyyətlə, Avropa ölkələri qarşısında duran problemlərin həllində də biz öz köməyimizi göstərəcəyik.

***- İlham müəllim, Sizə təşəkkür edirik. İstərdik ki, müsahibənizi izləyən tamaşaçılar, xalqımız Strasburqdan ürək sözlərinizi, xoş arzularınızı eşitsin.***

- Sizə təşəkkür edirəm. Mənim sözüm budur - bir də bildirmək istəyirəm ki, biz buraya işləməyə gəlmişik. Çox gərgin fəaliyyət göstəririk. Azərbaycanın milli maraqlarını müdafiə edirik, işğalçı dövləti burada ifşa edirik və ifşa də edəcəyik. Bir sözlə, biz buraya böyük ümidlərlə gəlmişik, Hesab edirəm ki, Vətənə böyük qələbələrlə dönəcəyik.

***Müsahibəni apardı: Esmira Çərkəzqızı, Azərbaycan Dövlət Televiziyası***

**"Xalq" qəzeti,**
**25 aprel 2001-ci il**

## “Cənubi Qafqazda qaçqınlar və məcburi köçkünlər” mövzusunda keçirilən konfransda Azərbaycan Parlamentinin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin çıxışı (17 may 2001-ci il)

**Mayın 17-də «Hyatt Recensi» otelində Avropa Şurası Parlament Assambleyasının Miqrasiya, Qaçqınlar və Demoqrafiya Komitəsinin «Cənubi Qafqazda qaçqınlar və məcburi köçkünlər» mövzusunda konfransı öz işinə başlamışdır. Konfransda Azərbaycan Parlamentinin AŞ PA-da nümayəndə lıeyətinin rəhbəri, millət vəkili İlham Əliyev çıxış etmişdir:**

Hörmətli cənab sədr! Hörmətli qonaqlar! Xanımlar və cənablar!

İlk növbədə sizin hamınızı - konfrans iştirakçılarını Azərbaycanda səmimi qəlbdən salamlayıram və sizə işinizdə uğurlar arzulayıram. Cənubi Qafqazda qaçqınların və məcburi köçkünlərin məsələlərinə həsr olunmuş bu konfransın məhz Azərbaycanda keçirilməsi bizim üçün çox böyük əhəmiyyət daşıyır. Ona görə də mən konfransın təşkilatçılarına - miqrasiya, qaçqınlar və demoqraflıya məsələləri üzrə komitəyə bu tədbiri Bakıda keçirdiklərinə görə dərin minnətdarlığımı bildirirəm.

Bu bizim üçün hər şeydən əvvəl ona görə əhəmiyyətlidir ki, Azərbaycan cəmi bir neçə ay bundan əvvəl Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmişdir. Belə bir mötəbər tədbirin məhz Azərbaycanda keçirilməsi ölkəmizlə Avropa Şurası arasında sıx təmasların olmasından xəbər verir. Digər tərəfdən, bu bir də ona görə əhəmiyyətlidir ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox qaçqının əmələ gəlməsindən ən çox əziyyət çəkən bir ölkədir.

Sovet İttifaqının dağılması ərəfəsində və Sovet İttifaqı dağıldıqdan sonra, dünyada, o cümlədən bizim bölgədə çoxsaylı etnik münaqişələr meydana gəlmişdir. Bu münaqişələr ölkələrin xalqlarına olduqca böyük ziyan gətirmiş, on minlərlə insanın həyatını itirməsi və etnik münaqişələr nəticəsində yüz minlərlə insanın qaçqına çevrilməsi ilə nəticələnmişdir.

8 milyon əhalinin bir milyondan çoxunun qaçqın vəziyyətində yaşamasının nə demək olduğunu biz hamıdan yaxşı dərk edirik. Mən əvvəl qeyd etdiyim kimi, Azərbaycan bu münaqişədən ən çox əziyyət çəkən tərəfdir.

Hazırda torpaqlarımızın 20 faizi Ermənistanın silahlı qüvvələrinin işğalı altındadır. Hörmətli cənab sədrin burada qeyd etdiyi kimi, bir milyondan çox azərbaycanlı öz vətənində qaçqına və köçkünə çevrilmişdir. Əgər bunların bir qismi Ermənistanda həyata keçirilmiş etnik təmizləmə nəticəsində öz yurd-yuvasını itirərək Azərbaycana pənah gətirmiş insanlardırsa, digər böyük bir qismi Dağlıq Qarabağda və işğal edilmiş ətraf rayonlarda yaşamış insanlardır. Onlar Ermənistanın hərbi təcavüzü nəticəsində öz daimi yaşayış yerlərindən didərgin düşmüş, bütün əmlaklarını itirərək, öz hüquqlarından məhrum olmuş, Azərbaycanın daxilində qaçqına çevrilmişlər.

Dünyada bir insanın haqqının tapdalanması özlüyündə faciədir. Dünyanın bütün demokratik, mütərəqqi insanları, insan haqlarının tapdalanmasının əleyhinə öz səslərini qaldırırlar. Amma təsəvvür edirsinizmi, bir milyondan çox insanın haqqı tapdalanmışdır, onda Avropa hansı hissləri keçirməlidir? Bu insanlar öz ev-eşiklərini itirmişlər, bütün mülklərini, varidatlarını, hər şeylərini itirmişlər. Onların bəziləri məhv olmuşlar.

On ildən çoxdur ki, bir milyona yaxın insan çadırlarda ağır vəziyyətdə yaşayır, uşaqlar çadırlarda doğulur, məktəbə gedir. Qaçqın və köçkünlər çadırlarda dünyasını dəyişir. Amma hələ də bu münaqişə həll edilməmişdir. Hesab edirəm ki, qaçqınların məsələsinə məhz ümumavropa insan hüquqlarının tapdalanması prizmasından yanaşmaq lazımdır. Biz hamımız əlimizdən gələni əsirgəməməliyik ki, bu vəziyyətə son qoyaq.

Avropa bu problemlərə biganə qalmamalıdır. Avropanın ən mötəbər, ən nüfuzlu təşkilatlarından biri olan Avropa Şurası Parlament Assambleyası Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızı azad etməsi, bir milyondan çox soydaşımızın öz yurdlarına dönməsi üçün ciddi, təsirli tədbirlər görməli, addımlar atmalıdır.

Konfrans iştirakçılarının bəziləri düşünə bilərlər ki, çıxışımda işlətdiyim «işğalçı» ifadəsi ciddi bir ittihamdır. Biz bu gün Bakıya ona görə toplaşmamışıq ki, kimisə ittiham edək. Daha çox ona görə toplaşmışıq ki, münaqişənin, bu problemin həll olunmasına öz töhfəmizi verək. Mən bunu anlayıram, bununla razıyam. Eyni zamanda hesab edirəm ki, əgər hər bir şeyi öz adı ilə çağırmasaq, onda münaqişənin həll edilməsi çox çətin olacaqdır. Əgər bir qaçqını qaçqın kimi qəbul ediriksə və onun problemləri ilə məşğul oluruqsa, biz gərək işğalçını da öz adı ilə çağıraq, təcavüzkara da təcavüzkar olduğunu açıq bildirək. Əks-təqdirdə, düzgün diaqnoz qoymadan «xəstəliyin» müalicə olunması çox çətin olacaqdır.

Siz çoxunuz İkinci Dünya müharibəsi zamanı işğaldan əzab çəkmiş ölkələri təmsil edirsiniz. Lakin o zaman Avropa bütün qüvvələrini, səylərini bir araya gətirərək işğala, təcavüzə son qoymağa nail oldu. Bu gün də Avropanın bir hissəsi olan Azərbaycanın torpaqları işğal olunubdur. Bu işğal beynəlxalq ictimaiyyət tərəfindən, həmçinin torpaqlarımızı işğal edən Ermənistanın rəhbərləri tərəfindən də qəbul olunubdur. Mən əminəm ki, əgər

Avropa 50 il bundan öncə olduğu kimi səylərini, qüvvələrini yenidən bir araya gətirərsə, onda bizim qitədə qaçqın problemi daha mövcud olmayacaqdır.

Hörmətli qonaqlar, icazə verin, sizi bir daha vətənimizdə səmimi qəlbdən salamlayım, sizin işinizə uğurlar arzulayım. Əminəm ki, bugünkü konfrans çərçivəsində aparılan müzakirələr, əldə ediləcək nəticələr qaçqınların problemlərinin aradan qaldırılması istiqamətində ciddi bir addım olacaq. Çox sağ olun.

***Fasilə zamanı Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, millət vəkili İlham Əliyev jurnalistlərin suallarına cavab verərkən demişdir:***

- Mən hesab edirəm ki, Ermənistan Azərbaycana qarşı dövlət səviyyəsində terror siyasəti yeridir. Bunu başqa cür adlandırmaq mümkün deyil. Bu terror siyasətinin nəticəsidir ki, Azərbaycan ərazisinin 20 faizi işğal edilmişdir. Biz minlərlə, on minlərlə qurban vermişik. Bir milyon qaçqınımız var. İndi bütün dünya bunu bilir və görür.

Əgər 8-10 il bundan əvvəl Azərbaycanın dünyada, Avropada mövqeyi o qədər də güclü deyildisə, əgər o vaxt erməni lobbisinin fəaliyyəti nəticəsində dünya ictimaiyyətinin Azərbaycan həqiqətləri haqqında məlumatı yox idisə, bu gün vəziyyət başqadır. İndi hər kəs üçün aydındır ki, Ermənistan Azərbaycana qarşı terror törətmiş işğalçı dövlətdir.

***İlham Əliyev «Azərbaycan dövlətinə və xalqına qarşı törədilmiş dəhşətli cinayətlərin səbəbkarları Beynəlxalq Tribunala veriləcəkmi» sualına cavab verərkən demişdir:***

- Hər şeyin öz vaxtı var. Yaşayarıq, görərik. Hesab edirəm ki, bu, dəyərli fikirdir. Ancaq bunu həyata keçirmək üçün müxtəlif işlər görülməlidir. Biz bu barədə fikirləşirik. Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyasına hazırlaşırıq. Nümayəndə heyətimizin üzvləri arasında bu barədə müzakirələr gedir. İnanıram ki, iyul ayında keçiriləcək sessiyada Azərbaycan öz sözünü deyəcək və yeni faktlar üzə çıxaracaqdır.

**«Xalq» qəzeti,**
**18 may 2001-ci il**

**Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin başçısı, Milli Məclisin deputatı İlham Əliyevin çıxışı**
**(25 sentyabr 2001-ci il)**

Avropa Şurası Parlament Assambleyasının sentyabrın 25-də keçirilmiş iclasında beynəlxalq terrorizm məsələsi geniş müzakirə edilmişdir. Müxtəlif ölkələrdən olan deputatlar iclasda çıxış edərək minlərlə dinc əhalinin məhvinə səbəb olan terror aktlarını, xüsusilə sentyabrın 11-də ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində törədilmiş vəhşilikləri qətiyyətlə pisləmiş, terrorçuluğun yeni formasiyası mahiyyət daşımasından narahat olduqlarını bildirmiş, bütün dünya ölkələrini bu təhlükəyə qarşı mübarizəyə çağırmışlar.

Ermənistan nümayəndə heyətinin başçısı Hovanesyan iclasda çıxış edərək, Qafqaz regionundakı vəziyyəti təhrif etmişdir. 0 bildirmişdir ki, guya Ermənistan heç bir terror aktını dəstəkləmir və terrorizmə qarşı mübarizə aparır. Azərbaycanın sülhpərvər mövqeyinə göz yuman Hovanesyan erməni təbliğatının ənənəvi böhtan və iftira vasitələrinə əl ataraq Dağlıq Qarabağın erməni əhalisinə qarşı Azərbaycanın guya terror siyasəti yeritdiyini, məşhur terrorçu Ben Ladenin Bakı ilə telefon əlaqəsi saxladığını iddia etmişdir. Lakin o, Azərbaycan nümayəndə heyətinin başçısı, Milli Məclisin deputatı İlham Əliyev tərəfindən layiqli cavabını almışdır. Millət vəkili İlham Əliyev Ermənistan nümayəndəsinin siyasi möhtəkirlik etdiyini vurğulayaraq onun iddialarını qətiyyətlə rədd etmişdir.

Əziz cənab sədr!

Xanımlar və cənablar!

Təəssüf ki, mən çıxışımı Ermənistandan olan həmkarımın çıxışına, guya Azərbaycanda bəzi adamların Ben Ladenlə əlaqəsinin olması haqqında əsassız sözlərinə cavabla başlayıram.

Tam məsuliyyətlə sizə deməliyəm ki, bu, tamamilə əsassız yalandır. Bu əsassız iddia heç kim tərəfindən təsdiq olunmayıb və mən bütün həmkarlarıma müraciətlə xahiş etmək istəyirəm ki, Avropa Şurasının yüksək kürsüsündən öz siyasi məqsədləri naminə böhtan yaymaq üçün istifadə etməsinlər.

Əziz cənab sədr!

Xanımlar və cənablar!

Birləşmiş Ştatlara qarşı törədilən terror aktları ilə bağlı bizim hamımız böyük sarsıntı keçirdik. Azərbaycan nümayəndə heyətinin adından mən istərdim ki, minlərlə günahsız insanın ölümü və yaralanması ilə nəticələnmiş terror aktları ilə bağlı Birləşmiş Ştatların hökumətinə və Amerika xalqına səmimi başsağlığı verim.

Mən həm də istərdim ki, bu dəhşətli cinayəti törətmiş adamların tapılması və onların ədalət məhkəməsinə cəlb olunması ilə əlaqədar Azərbaycan hökuməti adından Birləşmiş Ştatlara tam dəstəyi bir daha bildirim.

Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktları aydın şəkildə göstərir ki, hamımızın yaşadığı dünya nə dərəcədə kövrəkdir. Heç kim özünü tam təhlükəsiz hiss edə bilməz. Ona görə də Beynəlxalq Birlik dünyanın hər yerində terrorizmin bütün formalarına qarşı mübarizədə birləşməlidir.

Haqq anı gəlib çatmışdır. Bəzi ölkələr üçün eyni zamanda ikili mövqe tutub həm terrorizm qurbanları, həm də terrorizmin təşkilatçıları ilə yaxşı əlaqələri qorumağa çalışmaq və bunu balanslaşdırılmış siyasət adlandırmaq imkanı yoxdur. Bu halda belə siyasət balanslaşdırılmış adlandırıla bilməz, belə siyasət kəskin tənqidə layiq siyasətdir. Terrorizmi birbaşa və ya dolayısı ilə dəstəkləyən hər bir ölkə və ya təşkilat beynəlxalq birlik tərəfindən məsuliyyətə cəlb olunmalıdır.

Azərbaycan terrorizmdən çox əziyyətlər çəkmişdir. Ermənistanın təcavüzü başlanıldığı andan erməni terrorçu qrupları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmişdir. Bu terror aktları nəticəsində Azərbaycanda 2 min adam öldürülmüş, on minlərlə adam yaralanmışdır.

Azərbaycan xalqına qarşı terror aktları qatarlarda, avtobuslarda, gəmilərdə, metrolarda törədilmişdir.

Erməni terrorçularının Azərbaycan xalqına qarşı törətdiyi terror aktları Ermənistan silahlı qüvvələrinin Azərbaycana genişmiqyaslı təcavüzünün əsas elementlərindən biridir. Bu terrorizmin nəticəsi kimi on minlərlə azərbaycanlı öldürülmüş, bir milyon insan qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Erməni terrorçu təşkilatı ASALA Ermənistanın Azərbaycana qarşı son 13 ildə həyata keçirdiyi terror və soyqırımı siyasətində çox fəal rol oynamışdır.

Hazırda qondarma «Dağlıq Qarabağ Respublikası»nın ərazisi və Azərbaycanın işğal olunmuş digər rayonları tam nəzarətsiz ərazilərdir. Qanunsuzluq hökm sürən bu ərazilərdə erməni rəsmiləri təkcə Ermənistandan deyil, digər ölkələrdən gələn terrorçuların da hazırlanması üçün düşərgələr yaradıblar. Dağlıq Qarabağın ərazisi narkotik maddələrin daşınması üçün istifadə olunur və narkotiklərin istehsalından, daşınmasından əldə edilən külli miqdarda pul terror məqsədləri üçün xərclənir.

Azərbaycan terrorizmə qarşı mübarizədə Birləşmiş Ştatlarla bir alyansdadır. Biz bütün demokratik dünya ilə birik və dünyada terrorizmə son qoymaq üçün əlimizdən gələn töhfəni verməyə hazırıq. Azərbaycan prezidenti cənab Heydər Əliyev Amerika Birləşmiş Ştatlarına qarşı yönəldilmiş hücumlardan sonra etdiyi çıxışında

Azərbaycanın Birləşmiş Ştatlara tam dəstəyini ifadə etmişdir. Azərbaycan özünün hava məkanını Birləşmiş Ştatlar üçün açmışdır və Birləşmiş Ştatlara terror aktları törədənlərin ədalət məhkəməsi qarşısında məsuliyyət daşıması üçün lazım ola biləcək infrastrukturları və komumikasiyaları ABŞ-ın istifadəsinə verməyə hazırıq. Beynəlxalq birlik terrora qarşı mübarizədə çox vaxt itirmişdir. Lakin bu işə heç başlamamaqdansa, gec başlamaq yaxşıdır.

Təkcə ABŞ-da bu dəhşətli terror aktlarını törədənlərə qarşı deyil, dünyada terrorizmin bütün formalarına qarşı genişmiqyaslı antiterror kampaniyasına başlamağın və terrorizm ilə savaşda çox ciddi addımlar atmağın vaxtı gəlib çatmışdır.

Diqqətinizə görə sağ olun.

**AzərTAc,**
**«Xalq qəzeti»**
**Strasburq,**
**25 sentyabr 2001-ci il**

**Avropa Şurası Parlament Assambleyasında Azərbaycan parlamenti nümayəndə heyətinin başçısı, Milli Məclisin deputatı İlham Əliyevin Strasburqdan Azərbaycan televiziyasına birbaşa müsahibəsi (26 sentyabr 2001-ci il)**

**Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin başçısı, MiIH Məclisin deputatı İlham Əliyev sentyabrın 26-da AŞ-ın iqamətgahından - Strasburqdan Azərbaycan televiziyasına birbaşa müsahibə vermişdir. Həmin müsahibənin mətnini oxuculara təqdim edirik.**

***- İlham müəllim, axşamınız xeyir olsun.***

- Axşamınız xeyir.

***- Azərbaycan Milli Məclisinin nümayəndə heyəti Avropa Şurasının Parlament Assambleyasında fəaliyyətini uğurla davam etdirir. Artıq bu barədə kütləvi informasiya vasitələrində məlumatlar dərc olunur. Bir az əvvəl peyk rabitəsi vasitəsilə aldığımız kadrları Azərbaycan televiziyasının tamaşaçıları bütövlükdə izlədilər. Nümayəndə heyətinin sualına cavab olaraq Avropa Şurası Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəklədiyini bir daha təsdiq etdi. Bu barədə bir qədər ətraflı məlumat verməyinizi xahiş edirik.***

- Təşəkkür edirəm. Bəli, siz dediyiniz kimi, Avropa Şurası Azərbaycanın ərazi bütövlüyünü bir daha tanıdı. Mən hesab edirəm ki, bu, çox mühüm bir hadisədir, bizim böyük uğurumuzdur. Çünki, bilirsiniz ki, Ermənistan tərəfi həmişə hər iki prinsipi, yəni ərazi bütövlüyü prinsipini və xalqların öz müqəddəratını təyin etməsi prinsipini qarşı-qarşıya qoyurdu. Belə bir mövqedən çıxış edirdilər ki, hər bir prinsip eyni dərəcədə dəyərlidir. Avropa Şurası tərəfindən qəbul olunmuş sənəd isə bütün bu məsələlərə böyük aydınlıq gətirir. Yəni, xalqların öz müqəddəratını təyinetməsi prinsipi yalnız və yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Deməli, burada Azərbaycanın mövqeyi, ölkəmizin dəfələrlə bəyan etdiyi tələblər öz əksini tapır və beləliklə, Azərbaycanın mövqeyi üstünlük qazanmış olur. Mən hesab edirəm ki, bu, çox böyük uğurdur və bundan sonra müxtəlif səviyyələrdə danışıqlarda çox gözəl bir zəmin olacaq və danışıqlar prosesində öz rolunu oynayacaqdır.

***- Ermənistanın nümayəndəsi Hovanesyan sentyabrın 25-də Avropa Şurası Parlament Assambleyasının iclasında Azərbaycanın ünvanına böhtan xarakterli iddialarla çıxış etdikdən sonra, Siz ona tutarlı faktlarla layiqli cavab verdiniz. Bu məsələ ilə bağlı Avropa Şurasına əlavə faktlar və sənədlər təqdim olunacaqmı?***

- Təqdim olunacaq. Mənim çıxışımda da kifayət qədər faktlar var idi. Bizdə əlavə siyahılar da vardır. Biz onları Avropa Şurasına təqdim edəcəyik.

Mən bir məsələni demək istəyirəm. Ermənistan nümayəndə heyəti başçısının çıxışına biz təəccüblə yanaşmamalıyıq. Çünki o, ermənidir və bilirsiniz ki, Ermənistanın Azərbaycana qarşı yönəlmiş bütün təbliğatı məhz yalan, iftira üzərində qurulur. Bu dəfədə ki növbəti bir böhtandır, yalandır. Ona görə buna çox böyük reaksiya vermək lazım deyildir. Nəzərə alın ki, Ermənistanda bu ölkəni Avropa Şurasında təmsil edən nümayəndə heyətinə çox böyük təzyiqlər göstərilir. Onları ittiham edirlər ki, Ermənistan deputatları burada özlərini çox passiv aparırlar və ümumiyyətlə, Azərbaycan nümayəndə heyətinin qarşısında çox aciz görünürlər. Ona görə, hesab edirəm ki, bu amillər Ermənistan nümayəndə heyətini belə yalan söyləməyə vadar etdi. Amma deyə bilərəm ki, bu Avropa Şurasında çox mənfi reaksiya ilə üzləşdi. Avropa Şurası Parlament Assambleyasının müxtəlif ölkələri təmsil edən bir çox deputatı bizə yaxınlaşaraq bildirdilər ki, onlar Ermənistan nümayəndəsinin çıxışını çox mənfi qarşılayırlar. Ümumiyyətlə, hesab edirlər ki, Avropa Şurasının kürsüsü belə yalan, böhtan xarakterli ifadələr üçün məqbul sayıla bilməz.

Amma bununla bağlı mən bir məsələyə sizin diqqətinizi cəlb etmək istəyirəm. Təbiidir ki, Ermənistan nümayəndəsi belə bir çıxış edə bilər və elədi də. Mənim tərəfimdən layiqli cavabını da aldı. Bunu siz bilirsiniz. Amma sual olunur: bu yalan faktları həmin o erməni deputatı haradan götürübdür?

Məsələ bundadır ki, o, bu faktları Azərbaycanda çıxan müxalifət mətbuatından götürübdür. Erməni deputatına belə yalan faktları məhz müxalifət mətbuatı veribdir. O da burada onları səsləndiribdir. Məsələ bundadır. Sual etmək lazımdır: bəzi müxalifət mətbuatı, onları təsis edən, onlara bilavasitə və yaxud dolayısı ilə kömək göstərən şəxslər bu böhtan xarakterli yalan məlumatları yaymaqla kimin dəyirmanına su tökürlər? Biz burada ciddi mübarizə aparırıq. Azərbaycanın mövqelərini çox qətiyyətlə bildiririk. Demək olar ki, hər gün burada mübarizə gedir. Arxadan isə bizə zərbələr vurulur. Hesab edirəm ki, bu, yolverilməz haldır. Azərbaycanda müxalifət Azərbaycan dövləti ilə mübarizə aparmamalıdır. Azərbaycanın imicinə zərbələr vurmamalıdır. Sual olunur; o Hovanesyanla bu böhtanları öz mətbuat orqanlarına sızdıran bizim müxalifət liderləri arasında fərq nədədir? Mən o fərqi görmürəm. Sinələrinə vuraraq özlərini millətçi qüvvələr kimi təqdim etməyə çalışan adamlardan mən soruşuram: siz hansı milləti təqdim edirsiniz? Hər halda o şəxs Azərbaycan millətinin nümayəndəsi deyildir. Bu barədə düşünmək lazımdır. Hesab edirəm ki, belə hallara son qoyulmalıdır.

Biz ermənilərin əlinə yalan faktları verməməliyik ki, onlar burada öz çirkin niyyətlərini həyata keçirmək istəsinlər.

***- İlham müəllim, görünür, doğrudan da, "sapı özümüzdən olan baltaları" Azərbaycanın milli maraqlarından daha çox öz şəxsi maraqları düşündürür.***

***Azərbaycanın mənafeyinə uyğun digər bir məqama toxunaq. Siz Avropa Şurası Parlament Assambleyasının iclasında çıxış edərkən, Amerika Birləşmiş Ştatlarında törədilmiş terror aktı ilə bağlı Azərbaycanın mövqeyini açıqladınız. Ölkəmizin qətiyyətli mövqeyi Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilat şərəfindən necə qiymətləndirilir?***

- Çox yüksək qiymətləndirilmişdir. Deyə bilərəm ki, mənim çıxışımdan əvvəl də bu barədə, yəni Azərbaycanın mövqeyi haqqında burada - Avropa Şurasının deputatları arasında kifayət qədər məlumatlar var idi. Onlar bu məsələdən xəbərdar idilər ki, Azərbaycan birmənalı mövqeyini bildiribdir. Bilirsiniz ki, bizim ixtiyarımızda olan bütün vasitələri Amerika Birləşmiş Ştatlarının istifadəsinə verməyə, ona əlimizdən gələn bütün yardımları etməyə hazır olduğumuz bildirilmişdir. Bu isə burada çox yüksək qiymətləndirilmişdir. Bilirsiniz, mən çıxışımda demişdim ki, indi həqiqət anıdır. İndi hər kəsin, hər ölkənin real mövqeyi üzə çıxır. Yəni əgər bu dəhşətli hadisələrdən sonra hansısa ölkələr öz mövqelərini açıq bildirmir, yaxud da ikibaşlı oyun oynayırlarsa, indi artıq dünyada belə bir siyasətə yer yoxdur. Hər bir ölkə açıq, aydın şəkildə öz mövqeyini müəyyən etməlidir. Azərbaycan da bunu edib və deyə bilərəm ki, müxtəlif ölkələrdən olan deputatlar bizə öz təşəkkürlərini bildirirlər. Bizdən xahiş edirlər ki, onların minnətdarlığını ölkəmizin başçısına çatdıraq ki, belə bir anda çox cəsarətli, çox düzgün addım atılıbdır. Amma eyni sözləri Ermənistana şamil etmək olmaz. Çünki Ermənistan bu günə qədər öz mövqeyini bildirməyibdir. Mən çıxışımda dedim ki, artıq ikibaşlı mövqe tutmaq mümkün deyildir. Hər bir ölkə öz mövqeyini bildirməlidir. Azərbaycan da mövqeyini bildirmişdir, bildirib və dediyim kimi, bu da burada çox müsbət qarşılanıbdır.

***- Avropa Şurasında ölkəmiz üçün əhəmiyyətli olan iki sənəd - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Avropa Şurasında müzakirəsi, habelə qaçqın və köçkünlərin təhsil hüququ ilə bağlı sənədlər qəbul olunubdur. Bu barədə bir qədər ətraflı məlumat vermək mümkündürmü?***

- Mən sizə deyə bilərəm, biz çoxdan çalışırıq ki, Ermənistan-Azərbaycan münaqişəsini Avropa Şurasının müzakirəsinə çıxaraq. Təbiidir ki, Ermənistan tərəfi bunu istəmirdi. Səbəblər də aydındır. Çünki onlar məsələni ört-basdır etmək istəyirlər. Bu məsələnin müzakirəyə çıxarılması onlar üçün sərfəli deyildir. Çünki əgər bu məsələ müzakirəyə çıxarılarsa, onların kim olduğunu, Ermənistanın real işğalçı, təcavüzkar dövlət olduğunu bütün Avropa Şurası açıq-aydın görəcəkdir. Ona görə hər cəhdlə buna etiraz etməyə çalışırdılar. Bizim burada bir neçə ay apardığımız gərgin və düşünülmüş fəaliyyətimizin nəticəsində nail olmuşuq ki, Avropa Şurasının 51 deputatı bu sənədə qol çəkibdir. Nəzərə alsaq ki, sessiyada cəmi 150 deputat iştirak edir, deməli, deputatların üçdə bir hissəsi bu sənədə qol çəkib və beləliklə, yaxın gələcəkdə Ermənistan-Azərbaycan münaqişəsi burada müzakirə obyektinə çevriləcəkdir. Bu, bizim üçün çox vacibdir. Çünki bu məsələ nə qədər çox müzakirə olunarsa, dünya ictimaiyyəti Azərbaycanın haqlı, ədalətli mövqe tutduğunu bir o qədər çox görəcəkdir.

Ermənistanı isə başqa çarəsi yox idi. Ermənistan nümayəndəsi məcbur olub o sənədə qol çökmək istəyirdi. Ancaq biz hesab etdik ki, bu, artıq lazım deyildir. Beləliklə, 51 nəfər bu sənədə qol çəkibdir.

İkinci sənəd təhsil məsələləri ilə bağlıdır. Bilirsiniz ki, Azərbaycanda işğal altında olan bölgələrdə minə qədər təhsil ocağı dağılıbdır və indi uşaqlar, qaçqın düşmüş ailələrdən olan şagirdlər çox böyük çətinliklər çəkirlər. O sənədə də 13 ölkəni təmsil edən 23 deputat qol çəkmişdir. Burada məsləhət görülmüşdür ki, bu məsələ də müzakirəyə çevrilsin. Hesab edirəm ki, biz kifayət qədər uğurlu işləmişik. Azərbaycan üçün çox vacib olan sənədlər hazırlamışıq, Avropa Şurasının dəstəyini tam şəkildə almışıq və gələcəkdə də fəaliyyətimizi bu sahədə davam etdirəcəyik.

***- İlham müəllim, Siz ermənilərin yaşadığı, güclü erməni lobbisinin mövcud olduğu bir ölkədə ASALA erməni terrorçu təşkilatının çox kəskin şəkildə, cəsarətlə pislədiniz. Avropa Şurasında bu məsələləri necə qarşıladılar? Bizim üçün bu, çox maraqlıdır.***

- Bilirsiniz, məsələ bundadır ki, Ermənistanla bağlı hər hansı bir məsələ ortaya çıxanda erməni lobbisi çalışır ki, bu məsələni diqqətdən uzaqda saxlasınlar. Mən sizi inandırıram, bəlkə də deputatların əksəriyyəti heç bilmirdi ki, ASALA nə təşkilatdır. Halbuki, ASALA terror təşkilatı dünyada minlərlə günahsız adamı məhv etmişdir. Ancaq biz görürdük ki, burada o təşkilat haqqında kifayət qədər məlumat yoxdur. Ona görə mən çıxışımda bu barədə qəti şəkildə bildirirdim. Sonra da başqa ölkələri təmsil edən deputatlarla ikitərəfli danışıqlarda bu məsələnin təkcə Azərbaycan, Türkiyə üçün yox, ümumiyyətlə, Avropa, dünya üçün nə qədər təhlükəli və ciddi olduğunu onların nəzərinə çatdırdım. Biz bu istiqamətdə öz işimizi davam etdirməliyik, işğalçı dövləti ifşa etməliyik. Özü də bizim bütün dəlillərimiz, sübutlarımız faktlar üzərində qurulubdur. Erməni deputatı kimi havadan götürülmüş, yaxud da hansısa şayiə xarakterli məlumatları vermirik, bunu özümüzə rəva bilmirik. Biz o cür mötəbər məclisi aldada bilmərik. Yəni bizim bütün faktlarımız realdır, həqiqətdir. Sadəcə olaraq, hərə öz yerində, hər təşkilatda, hər bir yerdə bu həqiqətləri dünyaya çatdırmalıdır. Əgər biz buna nail

olsaq, onda mən sizi inandırıram ki, Ermənistanın terrorçu dövlət kimi artıq formalaşmaqda olan imicini yaxın gələcəkdə daha da gücləndirəcəyik.

***- İlham müəllim, nümayəndə heyətimizin Avropa Şurasının rəhbərliyi, müxtəlif strukturları və digər ölkələrin nümayəndə heyətləri ilə əlaqələri Sizi qane edirmi?***

- Bəli, qane edir. Bilirsiniz ki, Azərbaycan heç bir il deyil Avropa Şurasının tam hüquqlu üzvüdür. Bu müddət ərzində biz bütün səviyyələrdə çox işgüzar, çox gözəl əlaqələr yarada bilmişik. Avropa Şurasının bütün rəhbər işçiləri ilə bizim gözəl əlaqələrimiz vardır. Biz hər dəfə onlarla görüşürük, fikir mübadiləsi aparırıq. Münasibətlər çox yüksək səviyyədədir. Deyə bilərəm ki, həm rəhbər vəzifəli şəxslərlə, eyni zamanda Avropa Şurası komitələrinin nümayəndələri ilə, siyasi qruplarda, komitələrdə, həmçinin burada çalışan məmurlarla da gözəl əlaqələrimiz var. Əlbəttə ki, gələcəkdə bu, daha da yüksək səviyyədə olacaqdır. Amma indi də bu münasibətlər bizi qane edir. Ən önəmlisi odur ki, biz burada Azərbaycana çox böyük rəğbət görürük. Həqiqi mənada rəğbət görürük. Azərbaycanın mövqeyi burada öz dəstəyini alır. Azərbaycan nümayəndə heyəti çox səmərəli çalışır. Həm ölkəyə rəğbət var, eyni zamanda bizim nümayəndələrə, yəni deputatlara, burada Azərbaycanı təmsil edən deputatlara böyük rəğbət var. Bu, çox müsbət haldır. Bu amil imkan verir ki, bizə lazım olan, Azərbaycana lazım olan sənədlərə çoxlu imza toplaya bilək.

***- Təşəkkür edirik. Azərbaycan nümayəndə heyətinə fəal işində yeni uğurlar arzulayırıq. Maraqlı məlumat və ətraflı müsahibə üçün minnətdarlığımızı bildiririk.***

**AzərTAc**
**"Xalq qəzeti",**
**27 sentyabr 2001-ci il**

## Avropa Şurası Parlament Assambleyasında Azərbaycan parlamenti nümayəndə heyətinin başçısı, Milli Məclisin deputatı İlham Əliyev erməni jurnalistinə müsahibə vermişdir (28 sentyabr 2001-ci il)

**Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin başçısı, Milli Məclisin deputatı İlham Əliyev sentyabrın 28-də Strasburqda Ermənistanın «Aravot» müstəqil qəzetinin müxbiri Armen Zərgəryana müsahibə vermişdir.**

**İlham Əliyev Azərbaycan nümayəndə heyətinin AŞPA-da fəaliyyətinin əsas istiqamətləri barədə suala cavabında demişdir:**

- Siyasətlə çoxdan məşğul oluram. Bilirsiniz ki, Ermənistan kimi, Azərbaycan da ötən ilin yanvarından Avropa Şurasının üzvüdür və mənə Parlament Assambleyasında deputat qrupuna başçılıq etmək tapşırılmışdır. Ona görə də biz burada Azərbaycan nümayəndə heyətinin fəaliyyətini, ilk növbədə, Azərbaycan haqqında, onun problemləri, perspektivləri haqqında həqiqəti Avropa ictimaiyyətinin geniş dairələrinə çatdırmağa yönəltmişik ki, Strasburqda olmağımızdan mənafelərimizi tam həcmdə irəlilətmək, Azərbaycanın istəklərinə nail olmaq üçün istifadə edək.

***- Siz növbəti prezident seçkilərində namizədliyinizin irəli sürüləcəyini istisna etmirsinizmi?***

- Əvvəla, mən bunu istisna edirəm, ona görə ki, Prezident Heydər Əliyev 2003-cü ildə Azərbaycanda növbəti prezident seçkilərində səsə qoyulacaqdır. Əminəm ki, o, Azərbaycan xalqının böyük əksəriyyətinin səsini qazanacaqdır. Odur ki, bundan söhbət getmir. Prinsipcə isə, istənilən ölkənin hər bir siyasətçisi üçün başlıcası onun ölkənin daxilindəki fəaliyyətidir. Ona görə də burada olmağımdan hansısa şöhrət qazanmaq üçün istifadə etmək barədə düşünməyə vaxtım yoxdur.

Mənim Azərbaycanda həm Parlamentdə, həm Neft Şirkətində, həm də Milli Olirapiya Komitəsində, indi burada, Avropa Şurasında o qədər vəzifələrim var ki, işlə məşğul olmaq lazımdır.

***- Heydər Əliyeviçin səhhəti necədir?***

- Əladır, çox yaxşıdır, hər şey qaydasındadır.

***- Ona cansağlığı, uğurlar arzulayırıq. Dünən burada Sizin belə bir bəyanatınız səsləndi ki, Qarabağ münaqişəsinin nizama salınmasında ATƏT-in Minsk qrupunun xəttilə heç bir irəliləyiş yoxdur və təklif etdiniz ki, bu məsələ Avropa Şurasında müzakirə olunsun. Siz nə üçün belə bir qənaətə gəldiniz?***

- Əvvəla, biz həmişə bunu əsas tutmuşuq və burada Avropa Şurasının rəhbərliyinə dəfələrlə bildirmişik ki, Avropa Şurasının və ATƏT-in fəaliyyətinin bir-birini əvəz etməsini əsla istəmirik və bunu yolverilməz sayırıq. ATƏT və onun Minsk qrupu çox faydalı funksiyanı yerinə yetirirlər. Doğrudur, Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən bugünədək heç bir qərar əldə olunmayıbdır. Ona görə də biz Azərbaycanda istəmirik ki, ATƏT bu münaqişənin nizama salınmasında özünün aparıcı rolunu zəiflətsin.

Digər tərəfdən, biz istəyirik ki, Avropa Şurası, ATƏT-i əvəz etməməklə, bu məsələ ilə fəal məşğul olsun. Çünki müxtəlif səviyyələrdə nə qədər çox müzakirələr aparılarsa, dünya ictimaiyyətinin bir o qədər çox dairələri Azərbaycanın ədalətli mövqeyini başa düşəcəklər.

Təəssüf ki, biz Ermənistan tərəfindən də belə bir istək olduğunu görmürük. Bizə elə gəlir ki, Ermənistan tərəfi hər vəchlə məsələnin əsl mahiyyətinin üstünü vurmamağa, yəni Azərbaycanın torpaqlarının işğalını, Azərbaycana qarşı təcavüzü, bu təcavüz nəticəsində bir milyon qaçqının evsiz-eşiksiz qalmasını açıb-ağartmamağa çalışır. Ermənistan diqqəti əməkdaşlıq üzərində cəmləşdirmək istəyərək, deyir ki, gəlin, məsələnin mahiyyətinə varmayaq, qoy bununla kimsə haradasa məşğul olsun, gəlin, iqtisadi əməkdaşlıqdan danışaq. Lakin başa düşmək lazımdır ki, bu, mümkün deyildir. Ərazilərimiz azad edilməyincə, Azərbaycan heç bir əməkdaşlığa razılıq verməyəcəkdir.

Ona görə yenə də sualın əvvəlinə qayıdaq, demək istəyirəm, biz istəyirik ki, Avropa Şurası bu məsələ ilə ciddi və fəal məşğul olsun. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Avropa Şurası çərçivəsində müzakirə keçirilməsi barədə təklifimizi bu sessiyada müxtəlif ölkələrin 50 deputatı dəstəkləmişdir. Hesab edirəm ki, bu, bizim böyük uğurumuzdur. Biz bu istiqamətdə işləyəcəyik və istəyirik ki, Avropa Şurası bu məsələ ilə məşğul olsun, onu müzakirə etsin, məruzəçi təyin etsin, Ermənistana da, Azərbaycana da müvafiq ekspertlər gəlsin və onlar kimin təcavüzkar, kimin isə zərərçəkən tərəf olduğunu öz gözləri ilə bir daha görsünlər.

***İlham Heydəroviç, Siz deyirsiniz ki, Avropa Şurası Qarabağ məsələsi ilə ciddi məşğul olsun. Amma görürsünüz ki, Ermənistan və Azərbaycan nümayəndə heyətləri bir-birilərini terrorizmdə, terrorçularla əlaqə saxlamaqda təqsirləndirirlər. Siz bu barədə nə deyə bilərsiniz? Ermənistan nümayəndə heyəti deyir ki, ben Laden Azərbaycana 60 dəfə zəng vurmuşdur, Azərbaycan tərəfi isə deyir ki, Dağlıq Qarabağ nəzarət edilməyən ərazidir, orada narkobiznes genişlənir. Bu cür qarşılıqlı ittihamlar olduğu halda, hər hansı əlaqələr mümkündürmü?***

- Mən bizim tərəfimizdən deyilənləri ittiham adlandırmazdım. Hər hansı ittiham faktlara əsaslanmalıdır. Bizdə erməni terrorçu təşkilatlarının Azərbaycanda törətdikləri əməllərin geniş siyahısı var. Çıxış üçün cəmi beş

dəqiqə ayrıldığına görə, mən bütün bu siyahını oxuya bilmədim. Amma bu siyahı var və o, müvafiq strukturlara təqdim ediləcəkdir. 32 terror aktı, metroda partlayışlar, qatarlarda, avtobuslarda, gəmi-bərələrdə partlayışlar. Bütün bunlar nəticəsində 2 min azərbaycanlı həlak olmuşdur. Bu, faktdır. Bunu burada, Avropa Şurasında da bilməlidirlər. Biz buna son qoymaq, əhalimizi belə terror hərəkətlərinin təkrar olunmasından qorumaq istəyirik.

Ermənistan deputatlarının nə dedikləri, bin Ladenin kimə zəng vurduğu barədə suala mən artıq cavab vermişəm. Lakin sizə də deyəcəyəm. O, bunu haradan götürübdür? Axı, heç bir informasiya yoxdur. ABŞ-ın Azərbaycandakı səfirliyi belə yalan bəyanatdan sonra açıqlama vermişdir ki, onlarda bu cür faktlar yoxdur. Əgər Ermənistan deputatının bin Ladenlə əlaqəsi varsa, onun telefon nömrəsini və kimə zəng vurduğunu bilirsə, qoy, bu informasiyanı müvafiq xüsusi xidmət idarələrinə versin. Özünü ən azı siyasətçi hesab edən adama belə yalan şeylər danışmaq yaraşmaz. Hər şey faktlara əsaslanmalıdır. Bizim sözlərimizdə yalan yoxdur. Biz real faktlara əsaslanırıq. Real faktlar isə bundan ibarətdir ki, bu gün Dağlıq Qarabağ ərazisi nəzarətsiz zonadır.

***- Orada seçilmiş hakimiyyət var.***

- Hansı hakimiyyət? Siz hansı hakimiyyəti nəzərdə tutursunuz?

***Prezidenti, Parlamenti nəzərdə tuturam.***

- Bu ərazidə heç bir qanun işləmir. Heç bir beynəlxalq təşkilat orada monitorinq keçirə bilmir, adi silahlar haqqında müqavilə orada qüvvəyə malik deyil, oradakı tankların və hərbi texnikanın sayı Azərbaycanda və Ermənistanda olduğundan xeyli çoxdur. Nəyə görə? Buna görə də o tanınmamışdır, yəni o, sanki dünyada yoxdur, amma eyni zamanda o var və qeyri-sabitlik ocağıdır. Axı, siz heç bir ermənin heç vaxt yaşamadığı 7 rayonun işğal olunması faktını inkar etməyəcəksiniz. Siz bu suala cavab vermək istəmirsiniz? Mən isə burada sizə bu sualı verirəm və cavab alıram ki, bəli, ərazi işğal edilmişdir, bir milyon insan çadırlarda yaşayır, ərazimizin 20 faizi işğal olunmuşdur. Bəs Ermənistan nə deyir? Deyir ki, biz ərazini işğal etmişik və ona görə də güc mövqeyindən danışırıq.

Dünya daha o dünya deyil, dünya dəyişmişdir. İndi güc mövqeyindən danışmaq mümkün deyildir, siz mənim sözlərimi yadda saxlayın, Ermənistanın vəziyyəti getdikcə ağırlaşacaq, bu cür qəsbkarlıq siyasətini aparmaq onun üçün daha çətin olacaqdır. Nə baş vermişdir? Əlbəttə, münaqişə nəticəsində Azərbaycan zərər çəkmişdir. Rayonlar dağıdılmışdır, insanlar ağır şəraitdə yaşayırlar. Amma iqtisadi inkişafa dair beynəlxalq statistikanı, ən başlıcası isə, Ermənistanla Azərbaycanın perspektivlərini müqayisə etsək, görərik ki, onların arasında uçurum dərinləşir. İndi Azərbaycanın təkcə valyuta ehtiyatı 1 milyard dollardır.

Ermənistan əsasən diasporun və ABŞ Konqresinin yardımı hesabına dolanır. Əhalinizin yarısı köçüb getmişdir. Bu, faktdır. Ermənistanda 1,5 milyon, Qarabağda 100 mindən az adam yaşayır və bu proses davam edir. Bəs sonra nə olacaq? Bir şeyi başa düşün: Azərbaycan bu cür vəziyyətlə heç vaxt razılaşmayacaqdır. Vaxt ötəcək, onda gec olacaqdır. Bu gün Ermənistan regional layihələrdən tamamilə təcrid olunmuşdur. Bütün neft və qaz kəmərlərinin çəkilməsi üçün iqtisadi cəhətdən ən sərfəli yol Ermənistandandır, amma bunlar oradan yan keçir. Başqa regional layihələr də var. Bəs sonra nə? Siyasətçilər çox vaxt bugünkü məsələlərin həlli ilə məşğul olurlar, halbuki, onların vəzifəsi öz xalqı barəsində çox-çox illər qabaqcadan düşünməkdən ibarətdir. Açığını deyəcəyəm, sizdə perspektiv barədə düşünən siyasətçilər görmürəm.

***- Siz Avropa Şurası Parlament Assambleyası sədrinin jurnalistlər haqqında dünənki bəyanatını necə şərh edərdiniz?***

-Bu gün Azərbaycanda müstəqil kütləvi informasiya vasitələri üçün hər cür şərait yaradılmışdır. Müsahibədən əvvəl sizinlə söhbət edərkən soruşdum ki, Ermənistanda nə qədər qəzet çıxır? Dediniz ki, 6-7 qəzet. Bizdə isə 100-dən artıq gündəlik qəzet var və onlar əsasən müxtəlif siyasi dairələri təmsil edirlər. Azərbaycanda senzura yoxdur, hər qəzet istədiyini yazır, heç kim onlara nəzarət etmir. Bəzən görürsən ki, məmurlar haqqında məqalələr yazırlar və təbii ki, bu kimlərinsə xoşuna gəlmir. Buna görə də onlar qəzetləri məhkəməyə verirlər. Məqalələrdə yoxlanılmamış faktlar, çox vaxt da böhtan xarakterli faktlar olduğundan məhkəmə qəzetin əleyhinə qərar çıxarır. Bu, demokratik mexanizmdir, başqa mexanizm yoxdur. Buna görə də indi Azərbaycanın kütləvi informasiya vasitələrində hansısa problemlərin olduğundan danışmaq, zənnimcə, əsla düzgün olmazdı. Bir neçə özəl televiziya kanalı, çoxlu müxtəlif kütləvi informasiya vasitələri var.

***- Siz nəsə əlavə etmək istəyirsinizmi?***

- Azərbaycan Dağlıq Qarabağ məsələsini sülh yolu ilə həll etmək istəyir. Bu, Avropa Şurasına daxil olarkən bizim götürdüyümüz öhdəlikdir. Amma siz də başa düşməlisiniz ki, bu, daim davam edə bilməz, bu status-kvo həmişə qala bilməz. Ona görə də mən Ermənistandakı sağlam düşüncəli adamlara məsləhət görmək istərdim: Azərbaycan münaqişənin həlli ilə bağlı dövlətimizin ərazi bütövlüyünə xələl gətirən hər hansı qərarla heç bir şəraitdə razılaşmayacaq, Azərbaycan buna heç vaxt getməyəcəkdir. Ermənistanda bunu nə qədər tez anlasalar, münaqişənin həllinə bir o qədər tez nail olmaq mümkündür.

***AzərTAc***
***«Xalq qəzeti»,***
***29 sentyabr 2001-ci il***